QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 164 (5884) **10 sentyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# "Şərq Tərəfdaşlığı"nın 10 illik yolu: Cənubi Qafqaz ölkələrinin fərqli mövqeləri




Səh 2

4

"Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa açıqdır"



7

Məmurun istefaya getməsi partiyanın ona münasibətinin dəyişməsi üçün əsas deyil və ola bilməz



6

Bakıda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası keçirilib



# “Şərq Tərəfdaşlığı”nın 10 illik yolu: Cənubi Qafqaz ölkələrinin fərqli mövqeləri

***Avropa İttifaqının (Aİ) Şərq qonşuları ilə münasibətlərinin inkişafına yönəldilmiş “Şərq Tərəfdaşlığı” proqramının 10 illiyi 2019-cu ildə silsilə tədbirlərlə qeyd edildi. Brüsseldə bu mövzuda Aİ-nin sammiti keçirildi, Batumidə isə yüksək səviyyəli beynəlxalq konfrans təşkil olundu. Hər iki tədbirin nəticələrini ekspertlər analiz edir, proqnozlar verirlər. Həmin bağlılıqda Cənubi Qafqaz ölkələrinin “Şərq Tərəfdaşlığı” proqramında iştirakının özəllikləri və gələnən nəticələrin təhlili maraq doğurur. Bir sıra ekspertlər hesab edirlər ki, bu proqram çərçivəsində ən çox uğur qazanan ölkə Gürcüstan olub. Əslində, Brüssel də bu qənaətdədir. Ermənistanla bağlı konkret bir fikir ifadə etmək çətindir. Bu ölkə rəhbərliyinin yürütdüyü qeyri-konstruktiv siyasət nəticəsində onun “Şərq Tərəfdaşlığı” proqramında yeri və rolu da aydın deyil. Azərbaycanla bağlı isə tamamilə fərqli situasiya yaranıb. Rəsmi Bakının müstəqil siyasəti “Şərq Tərəfdaşlığı” proqramı daxilində onun məxsusi və ardıcıl mövqeyinin olduğunu təsdiqləyir.***




## Başlanğıc: Aİ-nin qonşuları ilə bağlı siyasətinin bəzi aspektləri

“Şərq Tərəfdaşlığı” proqramının 10 illiyinin başa çatması adi hadisə kimi qəbul edilmir. Aİ bu proqrama strateji məzmun verir. Avropa Qonşuluq Siyasəti (AQS) çərçivəsində həyata keçirilməli olan vacib layihələrin “Şərq Tərəfdaşlığı” proqramına birbaşa aidiyyəti vardır. Maraqlıdır ki, 2015-ci ildən başlayaraq Brüssel həmin proqrama təşkilatın təhlükəsizlik və xarici siyasətinin strateji məqsədləri kontekstində yanaşır. Bu isə özlüyündə “Şərq Tərəfdaşlığı”nın Aİ-nin geosiyasi mövqeyinin möhkəmlənməsi, Avropa sərhədləri yaxınlığında sabitliyin və təhlükəsizliyin təmini ilə sıx bağlı olduğunu ifadə etməkdədir.

Bu müddəalar işığında “Şərq Tərəfdaşlığı”nın 10 il müddətində mövcud olmasının Cənubi Qafqaz ölkələri ilə bağlı hansı nəticələri verməsi aktual görünür. Ekspertlər bu barədə artıq müəyyən təhlillər aparıblar. Məsələn, rusiyalı ekspert Sergey Markedonov problemin analizinə həsr olunan məqalə dərc edib (bax: Serqey Markedonov. 10 let Vostoçnoqo partnerstva ES: uroki dlə Azerbaydjana, Armenii i Qruzii / “Evraziə. Gkspert”, 17 iyul 2019). Lakin problemə daha geniş geosiyasi kontekstdə yanaşdıqda, fərqli məqamları görmək mümkün olur.

2009-cu ildə “Şərq Tərəfdaşlığı” proqramı irəli sürülərkən Aİ-nin sərhədləri yaxınlığında olan dövlətlərdə sabitliyin yaradılması, islahatlar və modernləşmənin aparılması, təhlükəsizliyin təmini, azad ticarət zonalarının yaradılması, viza rejiminin sadələşdirilməsi (və sonra ləğvi) kimi məqsədlər qarşıya qoyulurdu. Özü də bu məqsədlər Azərbaycan, Gürcüstan, Ukrayna, Belarus, Moldova və Ermənistan üçün nəzərdə tutulmuşdu. Aydındır ki, həmin ölkələr uzun müddət Rusiyanın nüfuz dairəsində olublar. Deməli, “Şərq Tərəfdaşlığı” müəyyən mənada Rusiya-Aİ münasibətlərinin kontekstinə də daxil idi.

Təsadüfi deyil ki, Kreml bu vəziyyətə ciddi reaksiya verdi. “Şərq Tərəfdaşlığı”na həsr edilmiş 2009-cu il Praqa və 2010-cu il Varşava sammitlərində proqramın reallaşması istiqamətində yeni addımlar daha çox müzakirə edilirdisə və “Şərq Tərəfdaşlığı”nın məzmununda elə bir dəyişiklik nəzərdə tutulmurdusa, 2013-cü il Vilnüs sammiti çox şeyi dəyişdi. Vilnüsdə Ukrayna və Ermənistan assosiativ üzvlük haqqında müqaviləni imzalamadılar. Hətta Ermənistan Rusiyanın dominantlığı altında olan Avrasiya İqtisadi İttifaqı (AİI) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə (KTMT) yaxınlaşma və sıx tərəfdaşlıq xəttinin davam etdirilməsini zəruri sayırdı. Azərbaycan isə tam müstəqil mövqe tutaraq, ümumiyyətlə, assosiativ üzvlüyə mənfi münasibətini ifadə etdi.

Beləliklə, 2013-cü ildə “Şərq Tərəfdaşlığı” proqramı ciddi siyasi zərbə aldı. Məlum oldu ki, proqrama daxil olan dövlətləri eyni qəlibə salmaq praktiki olaraq səmərəli deyil. Onda Aİ həmin proqramda tərəfdaş olan ölkələrə qarşı fərdi yanaşmaya üstünlük verməyə başladı. Bu, ümumiyyətlə, Avropa qonşuluq siyasətində yeniləşmə fonunda baş verirdi. Demək olar ki, həmin andan eyni proqramda olan üzv dövlətlərin geosiyasi yolları ayrılmış oldu. O cümlədən Ermənistanla Azərbaycanın “Şərq Tərəfdaşlığı”nın mövcud şərtləri daxilində bir qurumda olmasının mümkünsüzlüyü konkretləşdi. Belarus da fərqli mövqeyə keçdi. Ukraynanın isə öncədən mövqeyindəki fərq məlum idi.

Bu halda “Şərq Tərəfdaşlığı” proqramının vahidliyindən və məqsəd baxımından bütövlüyündən danışmaq olardımı? Çətin ki, bu sualın cavabı müsbət olardı. 2015-ci il Riqa sammiti də bu tezisin doğruluğunu təsdiq etdi. Azərbaycan bəyan etdi ki, özünün müstəqil əməkdaşlıq paketini hazırlayır. Həmin sənədlər paketində Aİ ilə strateji əməkdaşlıq daha geniş kontekstdə, lakin assosiativ üzvlükdən kənarda nəzərdə tutulur. Özü də burada əsas olaraq idarəetmənin təkmilləşdirilməsi, enerji təhlükəsizliyi, viza rejiminin yumşaldılması, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi kimi məsələlər əsas yer tutmalıdır. Azərbaycan sənəddə müstəqil dövlətlərin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi kimi şərtləri də irəli sürdü. Münaqişələrin həllində ərazi bütövlüyü şərtinin mütləq şəkildə qoyulması təsbit edildi.

Nəticədə, Aİ Azərbaycanın ədalətli və haqlı mövqeyini dəstəklədi. Təşkilatın qəbul etdiyi sənədlərdə münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində ərazi bütövlüyünə hörmət əsasında həll edilməsi öz ifadəsini tapdı. Hətta 2017-ci il Brüssel sammitində Ermənistanın ciddi etirazlarına baxmayaraq, bu punkt yekun bəyannaməyə salındı. O cümlədən Krımın anneksiyası ilə bağlı punkt saxlanıldı.

## Assosiativ üzvlük: pərdəarxasında nə baş verir?

Bunlar onu göstərir ki, Vilnüs sammitindən sonra həm Aİ-nin xarici siyasət və təhlükəsizlik siyasətində, həm də “Şərq Tərəfdaşlığı” proqramının məzmun və məqsədində ciddi dəyişikliklər oldu. Məsələn, Aİ-nin yaradılması sazişinin 49-cu maddəsi - müəyyən şərtləri yerinə yetirən istənilən Avropa ölkəsinin Aİ-yə üzv ola bilməsi məsələsi Vilnüs sammitində gündəlikdən çıxarıldı. Əvəzində, assosiativ üzvlük məsələsi qabardıldı. Bu, Rusiyanın təsiri ilə Aİ-nin qonşuları ilə münasibətlərinə yeni şərtlər daxilində baxmaq qərarına gəldiyini ifadə edirdi. Assosiativ üzvlük haqqında sənədə ancaq Gürcüstan və Moldova imza atdılar. Proqramın digər iştirakçıları fərqli mövqe tutdular. Bu isə o deməkdir ki, 2013-cü ildən başlayaraq “Şərq Tərəfdaşlığı” proqramı daxilən parçalandı, üzvlərin məqsədləri baxımından bircinsliyini itirdi. Təsadüfi deyil ki, artıq Riqa sammitində (2015-ci il) “Şərq Tərəfdaşlığı”nın yeni dörd baza istiqaməti müəyyənləşdirildi. Onlar konkret olaraq iqtisadiyyatın, idarəetmənin, əlaqələrin gücləndirilməsini və cəmiyyətlərin möhkəmləndirilməsini əhatə edir. Beşinci “Şərq Tərəfdaşlığı” sammitində (Brüssel, 2017-ci il) isə bu dörd baza istiqaməti üzrə 2020-ci ilədək iyirmi əsas hədəf müəyyən edildi.

Yeni hədəflər sosial, kommunikativ, iqtisadi, idarəetmə, infrastruktur, informasiya kimi sferalara aiddir. Burada Aİ-yə üzvlüyün arxa plana atılması yoxdur. Sadəcə, Aİ həmin məqsədə çatmaq üçün proqrama daxil olan dövlətlərlə işləmə alətlərində yenilik etdi. Bu zaman Brüssel Moskva faktorunu daha dərindən, ciddi və əhatəli nəzərə almağa başladı. Aİ-nin Xarici İşlər üzə Komitəsinin 2018-ci il “Təhlükəsizlik siyasəti və ümumi xarici siyasətin reallaşması haqqında illik hesabat” adlı sənədində ifadə edilən tezislər “Şərq Tərəfdaşlığı”nın yeni məqamları aspektində maraq doğurur. Hesabat-məruzədə qlobal geosiyasi mənzərə qeyri-müəyyən, risklərlə zəngin, ziddiyyətli, gözlənilməz hadisələrlə dolu mühit kimi analiz edilib. Bu əsasda həm Aİ-nin xarici siyasi kursu, həm də “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində əməkdaşlığın özəllikləri öz ifadəsini tapıb. Orada göstərilir ki, tərəfdaş ölkələrin təhlükəsizliyinin, suverenliyinin, ərazi bütövlüyünün təmini Aİ üçün böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, 2020-ci ilə qədər müəyyən edilmiş başlıca məqsədlərin reallaşması zərurəti vurğulanır. Deməli, Aİ “Şərq Tərəfdaşlığı”na indiki mərhələdə daha geniş kontekstdə və əhatəli baxır (bax: Annual report on the implementation of the Common Foreign and Security Policy (2018/2097(INI)) // http://www.europarl.europa.eu/doceo/document/A-8-2018-0392_EN.pdf, 26 noyabr 2018).

Beləliklə, “Şərq Tərəfdaşlığı” proqramı 10 illik yubileyinə başlanğıc məzmunda ciddi transformasiyalar şəraitində gəlmişdi. Sürətlə dəyişən geosiyasi şərtlərin təsiri altında bu proqram Aİ-nin daxili struktur-funksional transformasiyaları fonunda yeni məzmun və məqsəd çalarları almağa başlayıb. Həmin çərçivədə də tərəfdaş ölkələrin hər biri üçün fərdi yanaşma formalaşdırılıb.

***Ardı Səh. 3***

# “Şərq Tərəfdaşlığı”nın 10 illik yolu:
# Cənubi Qafqaz ölkələrinin fərqli mövqeləri

Əvvəli səh. 2

O cümlədən Cənubi Qafqaz ölkələrinin “Şərq Tərəfdaşlığı”nda iştirak səviyyələri fərqlidir. Bu məqam 2019-cu il 11-12 iyulda Batumidə “Şərq Tərəfdaşlığı” proqramının 10 illik yubileyinə həsr olunan beynəlxalq konfransda qabarıq surətdə öz ifadəsini tapdı.

Konfrans ümumi səviyyədə “Şərq Tərəfdaşlığı” proqramının uğurlu olduğunu vurğulanıb. Həmin kontekstdə Avropa İttifaqı Şurasının Prezidenti Donald Tusk deyib: “Tərəfdaş ölkələrlə siyasi və iqtisadi inteqrasiyanın davam etdirilməsi və daha da gücləndirilməsi üçün yeni imkanlar nəzərdən keçiriləcək. Əməkdaşlığın daha da güclü olması üçün dövlətlərlə yanaşı, vətəndaş cəmiyyəti və biznes ictimaiyyətinin də dəstəyi tələb olunur. “Şərq Tərəfdaşlığı” proqramının uğurlu olduğunu gündəlik həyat təsdiq edir” (bax: Donald Tusk: Avropa İttifaqı “Şərq Tərəfdaşlığı” proqramına üzv ölkələrlə əməkdaşlığı daha da gücləndirəcək / AZƏRTAC, 11 iyul 2019).




## Üç ölkənin mövqeyi:
## Azərbaycanın təklif etdiyi nümunəvi model

Bu fikirlərdən aydın olur ki, Brüssel “Şərq Tərəfdaşlığı”na daxil olan ölkələrlə iqtisadi ilə yanaşı, siyasi inteqrasiyanı da gücləndirmək fikrindədir. Bu o deməkdir ki, Aİ strateji aspektdə genişlənmə xəttini saxlamaqda qərarlıdır. Bunun üçün təşkilat ancaq dövlətlərlə deyil, vətəndaş cəmiyyəti və işgüzar dairələrlə də aktiv işləmək kursuna üstünlük verir. Bütün bunlar konkret olaraq 2020-ci ilə qədər prioritet hesab edilən iyirmi istiqamət üzrə reallaşdırılmalıdır.

Bu fikirlərin işığında Azərbaycanı Batumi konfransında təmsil edən xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevin çıxışı zamanı irəli sürdüyü “Aİ-nin “Şərq Tərəfdaşlığı” proqramının gələcəyi və uğuru regionda sabitlik və təhlükəsizliyin saxlanmasından asılıdır” tezisi xüsusilə aktualdır. Belə ki, Cənubi Qafqaz ölkələrinin “Şərq Tərəfdaşlığı” proqramında fərqli mövqeyində regionda mövcud olan münaqişələr ciddi rol oynayıb. Brüssel isə məsələnin bu tərəfinə lazımi diqqət yetirməyib. Daha konkret ifadə etsək, təcavüzkarın yerində oturdulması üçün ciddi heç bir iş görməyib.

Bu vəziyyətə proqramın qəbul edilməsinin 10-cu ildönümündən baxdıqda, D.Tuskun yuxarıda vurğuladığımız nikbin tezisi elə də inandırıcı görünmür. Çünki bu müddət ərzində Aİ Ermənistana təcavüzkarlığından əl çəkməyi inandırmayıbsa, hansı uğurdan və “daha çox yaxınlaşmadan” danışmaq olar? Həm də məsələyə Aİ-nin özünün üstünlük verdiyi təhlükəsizlik problemi prizmasından baxdıqda, xeyli risklərin mövcud olduğunu görə bilərik.

Reallıq ondan ibarətdir ki, “Şərq Tərəfdaşlığı” proqramının bir üzvü digər üzvünün ərazi bütövlüyünü pozub. Aİ-nin isə bu proqram çərçivəsində qoyduğu tələblərdən biri üzv ölkələrin ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Hələ də Brüssel bu paradoksal vəziyyəti izah edə bilməyib. Özü də Azərbaycan Aİ ilə əməkdaşlığı daim inkişaf etdirib. Azərbaycan Avropa ilə Asiyanı birləşdirən beynəlxalq enerji və nəqliyyat dəhlizlərinin keçdiyi məkandır. “Şərq-Qərb”, “Cənub-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin Cənubi Qafqazda qovuşduğu yer Azərbaycandır. Bundan başqa, Azərbaycan Avropanın enerji təhlükəsizliyində ciddi rol oynayacaq “Cənub Qaz Dəhlizi” layihəsinin fəal iştirakçısı və təşəbbüskarıdır. Bunlardan başqa, Azərbaycanda Aİ-nin standartları və tələblərinə uyğun idarəetmə təkmilləşdirilir, qanunçuluq inkişaf etdirilir, korrupsiya ilə mübarizə gücləndirilir. Konkret desək, Azərbaycan “Şərq Tərəfdaşlığı” çərçivəsində üzərinə düşən öhdəlikləri lazımi səviyyədə yerinə yetirir. Lakin daha da irəli getmək üçün Ermənistanın təcavüzkarlığının qarşısı alınmalıdır. Məhz bu məqamda Aİ-nin passivliyi və bəlkə də ermənilərə müəyyən mənada havadarlıq etmək istəyi qarşıda maneədir. Bu reallıq prizmasından 10 illik tarixi olan “Şərq Tərəfdaşlığı” proqramında Ermənistan, Azərbaycan və Gürcüstanın yeri haradadır?

Bu məsələdə S.Markedonovun gəldiyi nəticə belədir: “Cənubi Qafqazın hər üç dövlətinin Aİ ilə əməkdaşlıqda fərqli mövqeləri vardır. Gürcüstan Brüsseldə ölkənin ərazi bütövlüyü problemini həll etməyə qadir olan güc görür. Ermənistan regional təcrid şəraitində Rusiya ilə strateji müttəfiqlikdən imtina etmədən iqtisadi əlaqələrin diversifikasiyasına can atır. Azərbaycan isə insan haqları və vətəndaş azadlıqları üzrə sərt öhdəliklər götürmədən əsas olaraq biznes modelə istiqamətlənib” (bax: Sergey Markedonov. 10 let Vostoçnoqo partnerstva ES: uroki dlə Azerbaydjana, Armenii i Qruzii / “Evraziə. Gkspert”, 17 iyul 2019).

Bu fikirlərə yuxarıda vurğuladığımız özəlliklər kontekstində baxsaq, üç Cənubi Qafqaz ölkəsinin “Şərq Tərəfdaşlığı” proqramındakı fərqli mövqelərinin konkret əlamətlərini müəyyənləşdirə bilərik. Gürcüstanı Brüssel proqramın Cənubi Qafqazdakı lideri sayır. Belə ki, Tbilisi bütün istiqamətlərdə Aİ ilə yaxınlaşmağa çalışır, ərazi bütövlüyü məsələsini onun vasitəsilə həll etməyə cəhdlər göstərir, bu təşkilatın assosiativ üzvüdür. Ancaq bütün bunlar siyasi müstəvidə olan faktorlardır. Aİ hələ də Gürcüstanın ərazi bütövlüyünü təmin edə bilməyib.

“Şərq Tərəfdaşlığı”nın 10 illiyinə həsr olunmuş beynəlxalq Batumi konfransında da D.Tusk sözdə Rusiyanı ittiham etdi. Bu, artıq ənənə halını alıb: Aİ rəsmiləri ifadələrdə Moskvanı kəskin tənqid edirlər, amma onların heç biri praktikada əksini tapmır. Deməli, Aİ regionda özünə ən yaxın saydığı ölkənin belə təhlükəsizliyini tam təmin edə bilmir. O halda hansı mənada Gürcüstanın “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində aparıcı mövqeyindən danışmaq olar? Müəyyən şərtlərlə bunu ancaq siyasi aspektdə demək mümkündür.

Belə “aparıcı mövqe”nin müstəqil milli dövlətçiliyə hansı faydasının olduğu hələ də aydın deyil. Xüsusilə son dövrlərdə Gürcüstanın siyasi mühitində müşahidə edilən radikal qarşıdurmalar fonunda Tbilisinin “Şərq Tərəfdaşlığı” çərçivəsində fəaliyyəti ilə bağlı fərqli qiymətləndirmələrin olması ehtimalı artır. Eyni zamanda, Aİ-nin assosiativ üzvü olmağın dövlətçilik üçün hansı imtiyazları verdiyinə şübhə ilə yanaşmaq olar. Bunlar onu göstərir ki, Gürcüstanın “Şərq Tərəfdaşlığı”nda iştirakının nəzəri və praktiki qiymətləndirilmələri arasında müəyyən ziddiyyət mövcuddur.

Ermənistan isə bu aspektdə daha mürəkkəb və ziddiyyətli vəziyyətdədir. 2013-cü ildə İrəvan Aİ-ni aldatdı. Ermənistan Rusiyanın liderliyindəki Avrasiya İqtisadi İttifaqına (AİI) daxil oldu. Bunu o zaman Ermənistana rəhbərlik edən Serj Sarkisyan ölkənin təhlükəsizliyini təmin etmək zərurəti ilə izah etdi. İndi rusiyalı ekspertlər belə bir fikir irəli sürürlər ki, Avropa Ermənistanın başqa dövlətin ərazisini işğal etməsinə dözməyəcəkdi və İrəvana təzyiq edib, onu Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcbur edəcəkdi.

Belə çıxır ki, Ermənistan geosiyasi seçim edərkən əsas olaraq təcavüz siyasətinə haqq qazandıran gücə üstünlük verib. Lakin qəribədir ki, İrəvanla bərabər Brüssel də Ermənistanın demokratikliyindən dəm vurur. Xüsusilə Nikol Paşinyan küçə təzyiqləri ilə hakimiyyətə gəldikdən sonra absurd “erməni demokratiyası”, “qədim erməni dövlət idarətməsinin demokratik tərəfləri” kimi ifadələr işlədilir.

Hətta Aİ-də Cənubi Qafqazda “erməni demokratiyası” ilə “gürcü demokratiyası”nı birləşdirmək kimi məzmunsuz bir tezisdən bəhs edirlər. Birincisi, demokratiyanın etnikliyi olmur. İkincisi, erməni və ya gürcü demokratiyasının konkret əlamətləri barədə heç kim fikir deyə bilmir. Bu cəfəng və gülünc fikrin nəyi ifadə etdiyinin belə “elmi” izahı yoxdur. O halda “fransız demokratiyası”, “ingilis demokratiyası”, “alman demokratiyası”, “yunan demokratiyası” kimi müxtəlif ifadələri də qəbul etmək lazım gəlir ki, yekunda, ümumiyyətlə, “demokratiya meyarları” ifadəsi öz mənasını itirmiş olur.

Bu aspektdə Ermənistanda hansısa demokratiyadan dəm vurub, “Şərq Tərəfdaşlığı” proqramında forpost dövlətin “iştirakından” danışmaq ciddi məşğuliyyət deyil. Ermənistan bu proqramın heç bir yerində yoxdur - o, manipulyasiyalar və aldadıcı manevrlərlə məşğuldur. 2017-ci ildə Aİ ilə Ermənistan arasında dərinləşmiş və hərtərəfli əməkdaşlıqla bağlı saziş imzalanması isə imitasiya, zahiri görüntüdür. O vaxtdan bu yana tərəflər arasında heç bir proqram reallaşmayıb. Sözdə təriflər isə öz yerini saxlamaqdadır. Bunun əksinə, Ermənistan rəhbərliyi AİI üzvü kimi müxtəlif ölkələrlə bu təşkilatın əlaqələrinin “gücləndirilməsi” üçün dəridən-qabıqdan çıxır. Deməli, İrəvan yenə də iki od arasında qalıb: bir tərəfdən Rusiya, digər tərəfdən isə Aİ onu alova atır.

Bunların fonunda Azərbaycanın “Şərq Tərəfdaşlığı” proqramı çərçivəsində fəaliyyəti həqiqi mənada nümunəvidir. Ekspertlər vurğulayırlar ki, Azərbaycan 2013-cü il Ukrayna böhranına qədər və ondan sonra da Aİ ilə qarşılıqlı faydalı əməkdaşlıq xəttini tutub. Bu səbəbdən Rusiya ilə Qərb arasında geosiyasi münasibətlər nə dərəcədə gərgin olsa da, Azərbaycana təsiri olmayıb. Bu mənada Azərbaycanın Aİ ilə əməkdaşlığın prioritet istiqamətlərini yenidən razılaşdırması və strateji əməkdaşlıqla bağlı yeni sənədin müzakirə edilməsi “Şərq Tərəfdaşlığı” çərçivəsində olduqca əhəmiyyətli hadisədir. Azərbaycan Aİ ilə institusional əməkdaşlığın möhkəmləndirilməsi və idarəetmənin səmərəliliyinin yüksəldilməsi, iqtisadi inkişaf və bazar imkanlarının artırılması, enerjidə səmərəlilik və çeviklik istiqamətləri üzrə əməkdaşlıqda ortaq fikrə gəlib. Bunlar konkret və real faktorlardır. Onların həyata keçirilməsi həqiqi mənada Azərbaycanla Aİ-ni daha da yaxınlaşdıracaq. Burada siyasi-ideoloji motivin olmaması da çox aktualdır. Çünki həmin məqam Azərbaycanı geosiyasi oyunların hədəfinə çevirmir. Bütün bunlara görə, Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Federika Moqerininin “...neft və qazla zəngin olan Azərbaycan Aİ ilə çox sıx və bərabərhüquqlu münasibətlərə can atır” fikri xeyli maraqlıdır.

Beləliklə, “Şərq Tərəfdaşlığı” proqramının 10 illik tarixçəsi göstərir ki, Cənubi Qafqazın üç ölkəsi fərqli mövqeyə gəlib çıxıblar. Brüsselin maraqları baxımından regionun bu məsələdə aparıcı ölkəsi sayılan Gürcüstan, daha geniş müstəvidə baxdıqda, elə də inamlı görünmür. Ermənistan dolaşıq və qeyri-müəyyən geosiyasi seçimi səbəbindən iki güc arasında tərəddüd etməkdədir. Buna görə də “Şərq Tərəfdaşlığı” istiqamətində konkret heç bir iş görə bilməyib. Azərbaycan isə özünün milli və dövlət maraqlarını əsas götürməklə “Şərq tərəfdaşlığı” çərçivəsində Avropa İttifaqı ilə əməkdaşlığını daha da dərinləşdirir. Bu baxımdan həmin proqram aspektində də regionun ən perspektivli ölkəsi kimi qəbul edilə bilər.

***Kamal Adıgözəlov***

## Əli Həsənov: “Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa açıqdır”



Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının rəhbərliyində təmsil olunan Eldar İbrahimovun adından dünən yayılan açıqlama sosial şəbəkələrdə və ictimai rəydə müəyyən anlaşılmazlığa səbəb olub. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, həm də YAP rəhbərliyində təmsil olunan şəxs kimi bəyan edirəm ki, həm partiyamızın, həm də mövcud iqtidarın bu məsələyə münasibəti ümummilli lider, dövlətimizin və partiyamızın qurucusu Heydər Əliyev tərəfindən müəyyən edilib və bu gün də dəyişməz olaraq qalır.

Bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Facebook sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.

Prezidentin köməkçisi bildirib: “Xatırladıram ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan ziyalılarının 1992-ci ildə mətbuat vasitəsilə ona ünvanladığı müraciətinə verdiyi cavab yeni siyasi hərəkatın və bu hərəkatın avanqard qüvvəsi olan YAP-ın manifesti olaraq qəbul edilib və həmin manifestdə ifadə olunmuş prinsip və meyarlar bu gün də siyasi fəaliyyətimizin əsas kredosunu təşkil etməkdədir. Heydər Əliyevin ziyalılara 1992-ci ildə ünvanladığı həmin müraciət əslində, sadəcə, yeni bir siyasi partiyanın deyil, quruculuğuna başladığımız müstəqil dövlətin gələcək siyasi-ideoloji proqramı idi.

Müraciətdə Ümummilli Lider Azərbaycanın bütün sağlam qüvvələrini vahid dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında birləşərək gənc, müstəqil və yeni Azərbaycan dövlətinin quruculuğuna öz töhfəsini verməyə səsləyirdi.

Hakimiyyətdə olduğu bütün müddət ərzində Ümummilli Lider həmişə birlik və həmrəylik ideyasına sadiq qalmış, ölkədə vətəndaş sülhü, milli birlik naminə, Azərbaycan dövlətçiliyinə xidmət etmək istəyən, hər hansı idarəçilik və intellektual keyfiyyətləri olan insanların YAP-da və YAP-ın qurduğu iqtidar komandasında təmsil olunmasına şərait yaratmışdır. Azərbaycan tarixində həm də senzuranı ləğv etmiş rəhbər kimi Ümummilli Lider fərqli siyasi qüvvələrin parlamentdə birgə təmsilçiliyini, siyasi plüralizm və söz azadlığını müasir inkişafın labüd bir prinsipi olaraq qəbul etmiş, ümummilli məsələlərin siyasi opponentlərlə birgə müzakirəsini, bütün məsələlərin həlli naminə hər kəslə açıq dialoqu və əməkdaşlığı vacib saymışdır.

Belə dövlətçi-azərbaycançı yanaşma, milli həmrəyliyə sədaqət Ümummilli Liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ardıcıl olaraq davam etdirilir. İlham Əliyev ilk dəfə Prezident seçildiyi 2003-cü ildə səsləndirdiyi “Mən bütün azərbaycanlıların Prezidentiyəm” açıqlaması ilə həmin prinsiplərin onun üçün də dəyişməz olduğunu ortaya qoymuşdur.

Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır. Eldar İbrahimovun adından yayılmış məlum fikirlər isə YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir”.

## Tural Gəncəliyev: İşğal edilmiş Dağlıq Qarabağda keçirilən növbəti “seçki şousu” demokratiya və seçki adına böyük təhqirdir



Azərbaycan Respublikasının işğal edilmiş Dağlıq Qarabağ bölgəsində 2019-cu il 8 sentyabr tarixində “yerli özünüidarəetmə orqanlarına seçkilər” adı altında növbəti “seçki şousu” təşkil edilib. Reallıq hissini itirmiş təcavüzkar Ermənistan və əlaltısı olan cinayətkar Qarabağ xuntasının atdığı bu addım tam qanunsuzdur, heç bir hüquqi əsası yoxdur, demokratiya və seçki adına böyük bir təhqirdir.

Bu fikirlər Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyevin işğal edilmiş ərazilərimizdə keçirilmiş “yerli özünüidarəetmə orqanlarına seçkilər” ilə bağlı bəyanatında yer alıb.

“Qondarma xuntanın saxta “rəhbərləri” olan Bako Saakyan, Aşot Qulyan və onların ətrafındakı digər demokratiya “əzabkeşləri”nə bildiririk ki, onların demokratiya pərdəsi altında gizlənmək niyyətləri istehza doğurur və Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyi və etnik təmizləmənin həyata keçirildiyi bir şəraitdə bu “seçkilər” nəticəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan və təcavüzkarı növbəti dəfə ifşa edən bir şoudur. Əslində, işğalçı Ermənistan və qanlı xunta belə “seçkilər” keçirməklə beynəlxalq ictimaiyyəti deyil, yalnız özü-özlərini aldatmaqla məşğul olur. Saxta “seçkilər”, həmçinin Ermənistan hakimiyyəti və qondarma rejim arasında ixtilafların mövcudluğunu bir daha açıq şəkildə büruzə verdi. Bundan isə əziyyət çəkən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması ilə bərabər, həm də elə erməni icmasıdır. Tam əminik ki, Dağlıq Qarabağda yaşayan ermənilər, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri bərpa olunduqdan sonra geriyə dönəcək azərbaycanlılarla birlikdə ölkəmizin konstitusiyası və bələdiyyələr haqqında qanunlarına uyğun olaraq yerli özünüidarəetmə orqanlarına keçiriləcək qanuni seçkilərdə iştirak edəcək”,- deyə bəyanatda vurğulanır.

## Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib



Sentyabrın 7-də Yeni Azərbaycan Partiyasının rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirilib. Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu ilin dekabr ayında ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini bildirib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası həmişə olduğu kimi bu seçki kampaniyasının da yüksək səviyyədə həyata keçirilməsi üçün lazımı işləri görməlidir. Bu müşavirə də bələdiyyə seçkilərinə hazırlıq məsələlərinə həsr olunub.





YAP Sədrinin müavini qeyd edib ki, bələdiyyə seçkiləri ilə əlaqədar olaraq ölkədə siyasi canlanma müşahidə olunmaqdadır: “Müxalifətin ayrı-ayrı hissələri özlərinəməxsus şəkildə prosesə qoşulublar. YAP ölkədə mövcud siyasi proseslərin təhlil edilməsini də bələdiyyə seckilərinə hazırlıq məsələlərinin bir elementi kimi qəbul etməlidir. Təəssüflə qeyd etmək lazımdır ki, müxalifət bütövlükdə siyasi müxalifət üçün zəruri olan sosial bazanı təmin edə bilmədiyi üçün siyasi proseslərə normal cəmiyyətlərə xas olan norma və dəyərlərdən fərqli məqamlar gətirməyə çalışır. Onların apardıqları siyasi kampaniya əslində siyasi müxalifət anlayışının mahiyyətinin ciddi şəkildə tənəzzülü ilə müşayiət olunmaqdadır. Xüsusi qeyd olunmalıdır ki, müxalifətin müəyyən kəsiminin apardığı “siyasi kampaniya” mənəvi terror, yalan məlumatlar yaymaq, böhtan atmaq üzərində qurulub. İndi isə buraya yeni elementlər daxil edirlər. Bu da hədələmək, söymək və beləliklə də cəmiyyətimizin normal siyasi proseslərdən uzaqlaşmasına çalışmaqdır”.

Əli Əhmədov qeyd edib ki, bu dairələr siyasi müxalifət anlayışını ciddi surətdə təhrif etmiş olurlar. Beləliklə də, onlar yenidən vaxtilə Azərbaycanda həyata keçirilmiş “hakimiyyətə arxa qapıdan gəlmək” taktikasını tətbiq etmək istəyirlər. Bütün bunların hamısı siyasi proseslərdə xoşagəlməz proseslərin formalaşmasına rəvac verir. “Onlar siyasi proseslərdə normal dəyərlər əsasında iştirak etmək əvəzinə, qarşıdan gələn bələdiyyə və parlament seçkilərində iştirak əvəzinə çağırışlarını seçkilərdən imtina üzərində qururlar. Son zamanlar bizim müşahidə etdiyimiz məqam odur ki, bu müxalifət Azərbaycanın reallığının imicinə zərbə vurmaqdır. Bu da cəmiyyətimizdə ikrah doğurur”-deyən Əli Əhmədov bildirib ki, bu müxaliflərin xarici ölkələrin xüsusi xidmət orqanlarının təsiri altına düşməsi istisna deyil ki, bu da təhlükəli haldır. Onun sözlərinə görə, Azərbaycan cəmiyyəti onların davranışlarını, fəaliyyətlərini qəti şəkildə pisləyir.

Müşavirədə daha sonra qarşıdan gələn bələdiyyə seçkilərinə hazırlıq məsələləri ilə bağlı partiyanın rayon və şəhər təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

## Sevinc Fətəliyeva “Vahid Rusiya” Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin müdiri Valeriya Qoroxova ilə görüşüb



YAP Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva “Vahid Rusiya” Partiyasının Mərkəzi İcra Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Valeriya Qoroxova ilə görüşüb. S. Fətəliyeva Yeni Azərbaycan Partiyası ilə “Vahid Rusiya” Partiyası arasında əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib. Bildirib ki, hər iki partiya arasındakı sıx münasibətlər ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edir.

Öz növbəsində V.Qoroxova da partiyasının YAP ilə əlaqələrə önəm verdiyini deyərək, mövcud əməkdaşlığın daha da genişləndirilməsi perspektivlərinin olduğunu vurğulayıb. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

## Əlyazmalar İnstitutu “Qisseyi-Yusif” poemasının surətini əldə edib

Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini, filologiya üzrə elmlər doktoru Paşa Kərimov XIII əsrdə yaşamış Azərbaycan şairi Əlinin “Qisseyi-Yusif” poemasının Moskva Dövlət Universitetinin Beynəlxalq əlaqələr fakültəsinin nadir kitablar fondunda saxlanan əlyazmasının surətini əldə edib. İnstitutdan AZƏRTAC-a bildiriblər ki, son vaxtlara qədər araşdırmadan kənarda qalan bu nüsxə 1832-ci ildə Sankt-Peterburqda daha qədim bir əlyazmadan köçürülüb. Poemanın digər nüsxələri ilə müqayisədə daha mükəmməl olan bu əlyazma 5028 misradan ibarətdir.



# “Azərbaycan ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır”

*Baş Nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov Ağcabədi rayonu ərazisindəki N nömrəli hərbi hissədə əsgər və zabitlərlə görüş keçirib*





***Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - icra katibi Əli Əhmədov Ağcabədi rayonu ərazisindəki N nömrəli hərbi hissədə əsgər və zabitlərlə görüş keçirib***

Görüşdə Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev, Ağcabədi və Laçın rayon İcra Hakimiyyətlərinin başçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Əsgər və zabitlər qarşısında çıxış edən Baş nazirin müavini Əli Əhmədov Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətdən, silahlı qüvvələrə göstərilən diqqət və qayğıdan söz açıb. Bildirib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan dünyanın ən güclü ordularından birinə çevrilib.

“Ordumuzun gücü təkcə onun malik olduğu silahlarda, hərbi sürsatlarda deyil. Ordumuzun daha möhtəşəm güc mənbəyi əsgərlərimizin qəhrəmanlığında, döyüşlərdə göstərdiyi igidliyindədir. Yüksək döyüş ruhunda olmasındadır. Azərbaycan xalqına, dövlətinə dərindən inanmasındadır. Biz ordumuzla qürur duyur, fəxr edirik. Əminik ki, silahlı qüvvələrimiz Vətənimizin müstəqilliyinin və dövlətçiliyimizin keşiyində əzmlə dayanıb. Azərbaycan ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır. Biz torpaqlarımızın işğaldan azad etmək vəzifəsini dövlətimizin, xalqımızın və ordumuzun iradəsini birləşdirərək yerinə yetirməyə nail olacağıq”, - deyə Ə.Əhmədov söyləyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesindən də bəhs edən Baş nazirin müavini deyib: “Azərbaycan münaqişənin qan tökülmədən həll olunmasına tərəftar olmasını bəyan edir və danışıqlar prosesi aparılmaqdadır. Doğrudur, danışıqlar prosesinin gedişi bizi qane etmir. Biz dəfələrlə bununla bağlı mövqeyimizi ən yüksək səviyyədə ifadə etmişik. Amma danışıqlar prosesinin tamamilə sona çatdığını düşünmürük. Apardığımız siyasət ondan ibarətdir ki, qan tökülmədən, itkilərə yol vermədən Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsini təmin edək. Azərbaycan tərəfinin qoyduğu yeganə şərt odur ki, işğal olunmuş bütün torpaqlar qeyd-şərtsiz azad edilməlidir. Çünki bu torpaqlar Azərbaycanın torpaqlarıdır. Bütün dünya bu torpaqların Azərbaycan ərazisi olduğunu qəbul edir. Bütün hüquqlar, beynəlxalq normalar Azərbaycanın haqlı mövqeyini nümayiş etdirir. Ermənistan tərəfinin qeyri konstruktiv mövqeyi ucbatından hələ ki, danışıqlar prosesi bizim istədiyimiz nəticəyə gətirib çıxarmayıb. Əgər danışıqlar prosesi biz istədiyimiz nəticəni verməsə, pozulmuş ədalət bərpa olunmasa, Azərbaycanın torpaqları geri qayıtmasa biz məsələni ordunun gücü hesabına həll edəcəyik. Bizim hər birimizin bir müqəddəs vəzifəsi var - işğal altında olan torpaqlarımızın azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması, ədalətin bərpa olması”.



Birlik komandiri general-mayor Mais Bərxudarov qeyd edib ki, silahlı qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan ordusu dünyanın ən güclü ordularından birinə çevrilib. Silahlı qüvvələrin təminatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olması onu deməyə əsas verir ki, ordumuz düşməni hər an məhv etməyə qadirdir, buna hazırdır.

Sonra YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov və digər qonaqlar hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirib, şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub, əsgərlərlə birgə nahar ediblər. Hərbi hissəyə ideoloji və bədii kitablar hədiyyə olunub. Əsgər və zabitlər üçün konsert proqramı təşkil edilib.

# Əli Əhmədov: “Ölkəmizdə gənclər üçün hər cür həyat şərait yaradılıb”

*Baş Nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov Ağcabədi rayonunda gənclərlə görüşüb*






***Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov sentyabrın 8-də Ağcabədi Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirib. Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.***





Əvvəlcə Ağcabədi şəhərinin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Olimpiya İdman Kompleksində keçirilən tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP Siyasi şurasının üzvü, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tədbiri açaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Diqqətə çatdırıb ki, Ağcabədi rayonunun 136 min nəfər əhalisinin 37 min 700 nəfərini 14-29 yaşlı gənclər təşkil edir. YAP Ağcabədi rayonunun 15 min 600 nəfər üzvündən 6465 nəfəri gənclərdir. Dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində Ağcabədi rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. Ağcabədili gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.

Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan bəhs edib. Azərbaycanın öz tarixinin ən gözəl dövrünü yaşadığını deyən Baş Nazirin müavini bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Əli Əhmədov qeyd edib ki, ölkəmizdə gənclər üçün hər cür həyat şərait yaradılıb. Gənclərimiz xoşbəxtdirlər ki, Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar.

Milli Məclisin deputatı Tahir Rzayev çıxış edərək, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, gənclərin dövlətə, dövlətçiliyimizə, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətə həmişə sədaqətli olmalarından danışıb, onlara uğurlar arzulayıb. Sonra Olimpiya İdman Kompleksində idmançıların müxtəlif idman növləri üzrə çıxışları təqdim olunub. Tədbir konsert proqramı ilə başa çatıb.

# Bakıda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası keçirilib




**Sentyabrın 7-də Bakıda Yeni Azərbaycan Partiyasının ev sahibliyi ilə "Gənclərin sosial və siyasi proseslərdə rolu və qadınların fəallığının gücləndirilməsi" mövzusunda Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Gənclər Qolunun 5-ci və Qadınlar Qolunun 6-cı iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbiri ICAPP-ın Baş katibi Park Robyug açıb və gündəlik barədə məlumat verib. Çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov ICAPP-ın Asiya qitəsində ictimai-siyasi proseslərin, bir sıra problemlərin müzakirəsi baxımından vacib platforma olduğunu deyib. O, bugünkü toplantıda təşkilatın gələcək fəaliyyəti ilə bağlı faydalı qərarların qəbul olunacağına ümidvar olduğunu bildirib. Qeyd edib ki, Yeni Azərbaycan Partiyası ICAPP-ın fəal üzvü kimi bu təşkilatla səmərəli əməkdaşlıq edir.












Baş Nazirin müavini vurğulayıb ki, cəmiyyətin və bəşəriyyətin gələcəyini Asiya ölkələrində bu gün müşahidə olunan inkişafdan ayrı təsəvvür etmək mümkün deyil. Asiya dünya iqtisadiyyatının inkişafına böyük töhfələr verir. Asiya həm də bir çox təzadlarla müşahidə olunan regiondur. Bir tərəfdən inkişaf prosesləri gedir, digər tərəfdən inkişafın geridə qaldığı hallar da narahatlıq yaradır. Bu da bütövlükdə Asiya regionunun rəngarəng palitraya sahib olduğunu göstərir. Asiyanın bugünkü reallıqlarını müzakirə etməklə yanaşı, qitənin gələcək inkişafı ilə bağlı layihələrin hazırlanmasında konfransın üzərinə böyük iş düşür. Xüsusilə də gənclər və qadınlar problemini ayrıca vurğulamağa ehtiyac var. Asiya ölkələri üçün xarakterik olan məsələlərdən biri də əhalinin dinamik artımı ilə bağlı gənclərin xüsusi çəkisinin yüksək olması ilə əlaqədardır. Bu da ICAPP-ın fəaliyyətində gənclərlə bağlı görülməli işlərin nə qədər əhəmiyyətli olduğundan xəbər verir. Demokratiyanın, insan haqlarının, siyasi plüralizmin inkişafı istiqamətində ICAPP-ın böyük rolunun olması mümkündür. Sabitliyin, əmin-amanlığın bərqərar edilməsi və möhkəmləndirilməsi, region üçün problemə çevrilən terrorizm kimi bəlaların aradan qaldırılması da ICAPP çərçivəsində müzakirə olunacaq ciddi məsələlərdir. Əli Əhmədov əmin olduğunu bildirib ki, ICAPP bu sahədəki problemlərin aradan qaldırılması istiqamətində öz üzərinə düşən missiyasını lazımınca yerinə yetirə bilir.

Sonra çıxış edən ICAPP Gənclik Qolunun sədri, Malayziya parlamentinin üzvü Seri Şahidan bin Kassim Azərbaycan xalqına yüksək qonaqpərvərliyə görə təşəkkür edib. Ölkəmizə ikinci dəfə səfər etdiyini deyən qonaq ötən dövr ərzində böyük inkişafın şahidi olduğunu, Bakının isə dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini söyləyib.

Daha sonra çıxış edən ICAPP Qadınlar Qolunun həmsədri, Nepal parlamentinin üzvü Sujata Koirala bugünkü iclasın qadınların ictimai həyatda iştirakçılığının gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. O bildirib ki, qlobal dünyada gender bərabərliyinin təmin edilməsində mühüm nailiyyətlər əldə olunub, qadınların parlamentdə və dövlət qurumlarında təmsilçiliyi xeyli artıb. ICAPP fəaliyyət göstərdiyi dövr ərzində qadınların mövcud problemlərinin həlli istiqamətində zəruri işlər görüb.

Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova da tədbirin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, dünyada mövcud olan ictimai-siyasi durum, bütün qitələri təhdid edən təhlükələr və çağırışlar bizi ən müxtəlif formatlarda beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə siyasi partiyaların birlikləri olan ICAPP tipli təşkilatlarda birləşməyə vadar edir. Bu regionda siyasi partiyaların bir araya gəlməsi və regionun inkişafı üçün, qarşıda dayanan hədəflərə nail olunması üçün yolların axtarılması çox vacibdir.

Gənclər və İdman naziri Azad Rəhimov isə çıxışında Azərbaycanın dövlət gənclər siyasəti haqqında məlumat verib. O bildirib ki, ölkəmizdə gənclərlə bağlı bır sıra dövlət proqramları qəbul olunub. Əhalimizin 30 faizindən çoxunu gənclər təşkil edir. Prezident İlham Əliyev tərəfindən gənclərin inkişafı üçün yaradılmış şərait nəticəsində dövlət qurumlarında onların təmsilçiliyi xeyli sayda artıb. Gənclərimizin beynəlxalq əlaqələrinin inkişaf etdiyini deyən Azad Rəhimov son illərdə Azərbaycanda gənclər siyasəti ilə bağlı beynəlxalq tədbirlərin sayının da dəfələrlə artdığını vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Sədaqət Qəhrəmanova bildirib ki, müasir inteqrasiya, eləcə də davamlı inkişaf prosesində qadınların iştirakçılığının artırılması, bunun üçün mexanizmlərin yaradılması əsas məsələlərdəndir. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının Qadınlar Qolu qadınların hüquqlarının müdafiəsi istiqamətində çox mühüm layihələr həyata keçirir, onların iqtisadi, sosial həyatda iştirakının təmin olunmasında, bərabər hüquqlar əldə etməsində xüsusi rol oynayır. Müasir dövrdə qloballaşma şəraitində dünyanın bir çox, həmçinin ən inkişaf etmiş ölkələrində eyni problemlərə rast gəlinir. Sonra tədbir panel iclaslarla öz işini davam etdirib.








# YAP-ın Qarabağ bölgəsi üzrə rayon təşkilatlarının ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib

**Sentyabrın 8-də Ağcabədi rayonunda Yeni Azərbaycan Partiyasının Ağcabədi, Laçın, Bərdə, Ağdam və Tərtər rayon təşkilatlarının ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib.**

Müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-İcra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə, əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq.

YAP Sədrinin müavini bildirib ki, Azərbaycanın bu uğurları qazanmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Çünki sabitlik olmadan heç bir inkişafdan, əminamanlıqdan söhbət gedə bilməz. Ona görə də, hər bir dövlət və xalq üçün sabitlik ən mühüm şərtlərdən biridir.

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Bununla belə Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP Sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir.

YAP Sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdır. Ona görə də, partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidir. O cümlədən, ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Əli Əhmədov həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. O,Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Müşavirədə bələdiyyə seçkilərinə hazırlıq məsələləri ilə bağlı partiyanın rayon təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

# Məmurun istefaya getməsi partiyanın ona münasibətinin dəyişməsi üçün əsas deyil və ola bilməz

*Baş Nazirin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədovun Trend-ə müsahibəsi:*



***- Əli müəllim, son dövrlərin əhəmiyyətli siyasi meyillərindən biri geniş spektrli siyasi qüvvələrin Prezident İlham Əliyevin yürütdüyü siyasəti dəstəkləməsindən ibarətdir. Bunun səbəblərini Siz nədə görürsünüz?***

- Azərbaycanın inkişafı, uğurlarımız, əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan möhtəşəm addımlar göz qabağındadır. İnsanlar Prezident İlham Əliyevin siyasətini, onun nəticələrini yüksək qiymətləndirir. Biz bunu əhalinin bütün təbəqələrinin davranışında və baxışlarında hiss edirik. Hesab edirəm ki, dediyiniz geniş spektrli siyasi qüvvələrin hökumətin siyasətini dəstəkləməsi ilk növbədə bununla əlaqədardır. Onlar bununla dövləti, dövlətçiliyi partiya maraqlarından üstün tutduqlarını nümayiş etdirirlər. Mahiyyət etibarilə, Yeni Azərbaycan Partiyası onlarla siyasi rəqib olsa da, dövlətçilik maraqları naminə vahid mövqe nümayiş etdirilməsini alqışlayırıq.

Başqa bir səbəbi də vurğulamaq olar. Prezident İlham Əliyevin dövlət maraqlarının ən yüksək səviyyədə ifadə olunmasına və həyata keçirilməsinə yönəldilmiş siyasəti eyni zamanda həmin maraqlar naminə bütün siyasi qüvvələrin birliyini, dialoqunu və əməkdaşlığını həm nəzərdə tutur, həm də mümkün edir. Hakimiyyət milli maraqlar naminə konstruktiv mövqedə olan siyasi partiyaların vahid mövqeyinin formalaşmasını alqışlayır və bu zəmində əməkdaşlığa hazır olduğunu bildirir. Yaxşı haldır ki, siyasi partiyaların böyük bir qismi dediyim bu xətti dəstəkləyir və adekvat cavab verir. Nəticədə müxtəlif siyasi partiyaların ümummilli məsələlərdə vahid mövqeyinin yaranması, səmərəli əməkdaşlığı sahəsində ciddi irəliləyişlər əldə edilmişdir.

***- Yeni Azərbaycan Partiyasının bir sıra tanınmış simaları milli maraqlar naminə hakimiyyətlə əməkdaşlıq mövqeyində olan partiyaları, onların rəhbərlərini yumşaq şəkildə desək qeyri-səmimilikdə suçlayır, onları hətta düşmən adlandırmaqdan belə çəkinmirlər. Deputatlar Eldar İbrahimovun və Tahir Rzayevin bu məzmunda verdiyi müsahibələr partiyanızın mövqeyidir, yoxsa onların şəxsi mövqeyi?***

- Mən qaldırdığınız məsələ ilə əlaqədar partiyamızın mövqeyini yuxarıda bildirdim. Bu gün ölkəmizdə həyata keçirilən siyasətdə milli birlik, milli həmrəylik ideyası mühüm yer tutur. Biz bunu sadəcə bəyanat kimi deyil, real siyasət olaraq qəbul edir və həyata keçirilməsi naminə real addımlar atırıq. Həmin fundamental dəyərlər naminə bütün insanların, siyasətçilərin, partiyaların və ya ictimai təşkilatların birləşməsinə nail olmağa çalışmağımız əsas vəzifələrdəndir. Dövlətçilik naminə əməkdaşlıq etdiyimiz hər kəsə və hər bir siyasi partiyaya hörmətlə yanaşırıq, onlara vətənini və dövlətini ürəkdən sevən insanlar kimi baxırıq. Düşünürəm ki, onları qeyri-səmimilikdə suçlamağa heç bir əsas yoxdur və partiyamız kiməsə belə bir səlahiyyət verməyib. Bu gün Milli Məclisdə təmsil olunan partiyaların nümayəndələri xalqın elçisidir, onun səsi ilə millət vəkili mandatını qazanıb. Hakim partiya kimi məmnunluğumuzu ifadə etmək istəyirəm ki, xalqın etimadı ilə Milli Məclisdə təmsil olunan ayrı-ayrı partiyaların nümayəndələri ümummilli məsələlərdə, islahatların həyata keçirilməsində Prezident İlham Əliyevi dəstəkləyir. Biz buna İlham Əliyevin yürütdüyü siyasətin bütün xalq tərəfindən dəstəklənməsinin daha bir ifadəsi kimi yanaşırıq. Bu, həqiqətən belədir. Azərbaycan siyasətində uzun illər tanınan həmin adamlar hörmət və nüfuz sahibləridir, partiya rəhbərləridir, ziyalılardır. Onlar əhalinin müəyyən qisminin maraqlarını ifadə edir və ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayırlar. Bunu görməmək və qiymətləndirməmək ədalətsizlik olardı.

***- Əli müəllim, partiyanın vaxtilə yüksək vəzifə tutmuş keçmiş məmurlara münasibəti necədir?***

- Uzun illər Yeni Azərbaycan Partiyasının iqtidarında vəzifə tutmuş bütün keçmiş məmurlara münasibətimiz onların vəzifədə olduğu dövrdəkindən fərqlənmir. Vəzifədə olarkən ciddi səhvlərə yol verdiyinə görə işdən kənarlaşdırılan və haqqında qanuna uyğun olaraq tədbirlər görülənlər istisna olunmaqla. Məmurun istefaya getməsi partiyanın ona münasibətinin dəyişməsi üçün əsas deyil və ola bilməz. İstefaya getmək onun cəzalandırılması deyil. Bizim hər birimiz nə vaxtsa istefaya gedəcəyik. Bunu normal yeniləşmə prosesi kimi qəbul etmək lazımdır və biz məhz belə edirik. İstefaya gedən və ya Milli Məclisə növbəti dəfə deputat seçilə bilməyən keçmiş millət vəkili yenə də bizim yanımızdadır, yenə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğur qazanmasına öz imkanları çərçivəsində dəstək verir. Onların xidmətləri və zəhmətləri də unudulmur. Əgər siz diqqətlə müşahidə edirsinizsə, həmin qəbildən olan insanlar partiyamızın keçirdiyi bütün tədbirlərdə iştirak edir, bizimlə bir sırada dayanır. Söhbət siyasi əqidədən gedir. Vaxtilə vəzifədə olan insanların hər biri Heydər Əliyev ideyalarına, İlham Əliyevin siyasətinə, dövlətə və dövlətçiliyə sadiq insanlardır. İstefaya çıxdıqdan sonra da onların hamısı həmin dəyərlərə sədaqətini saxlayırlar. Onlar bizim əqidə dostlarımız, yol yoldaşlarımızdır. Onlar bu iqtidarın təəssübünü çəkən, qədrini bilən, hər addımda onu dəstəkləyən hörmətli insanlardır.

Onu da demək istəyirəm ki, hər bir iqtidarın gücü həm də onun daxili əqidə birliyində, qarşılıqlı inam və hörmət mühitinin olmasındadır. Biz keçmiş məmurları əqidə və sədaqət baxımından indi vəzifədə olan məmurlardan fərqləndirmirik. Onların hər biri xalqın, dövlətin, dövlətçiliyin və prezidentin yolunda sədaqət və fədakarlıq göstərmiş və göstərən dəyərli insanlardır. Biz bir yerdə daha güclü oluruq.

# "Mən partiyalar, parlament müxalifəti haqqında heç nə deməmişəm"

***"Kimlərsə araqarışdırmaq, dediklərimi başqa yerə yozub, gərginlik yaratmaq istəyirlərsə, böyük səhvə və yanlışlığa yol verirlər. Heç bir haqları və əsasları yoxdur...."***



Etikxeber.az-ın müxbirininin suallarını hakim Yeni Azərbaycan Partiyasından (YAP) olan millət vəkili, professor Eldar İbrahimov cavablandırır:

***-Eldar müəllim, sizin mətbuata son müsahibə və açıqlamanız bir qədər qalmaqla, daha doğrusu, yanlış yozumlara səbəb olub. Sizin vaxtı ilə parlamentdə təmsili olunmuş və radikal müxalifət kimi qiymətləndirilən partiyalar, onların təmsilçiləri haqqında fikirləriniz bəziləri tərəfindən indiki müxalifət partiyalarına, parlamentdə təmsil olunan partiyalara şamil olunur, daha doğrusu, belə təqdim olunmağa cəhdlər edilir. Hətta, YAP-ın Sədr müavini və İcra katibi Əli Əhmədov, o cümlədən, YAP-ın İdarə Heyətinin üzvü, Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ard-arda təkzib xarakteli müsahibə və açıqlamalarla çıxış ediblər. Siz bir daha bu haqda nə deyərdiniz?***

-Əvvəla, mən Azərbaycanda deyiləm, Kanadayam. Müsahibəm və açıqlamamla da tam tanış olmaq imkanım olmayıb. Amma mən orada indiki müxalifətin, xüsusilə də, hansısa partiyanın və ya partiyaların, o cümlədən, parlament müxalifətinin və müxalifət təmsilçilərinin adlarını çəkməmişəm. Onlar haqqında heç bir fikir söyləməmişəm. Mən, sadəcə, radikallar, "söyüş" müxalifəti, vaxtı ilə parlamentdə təmsil olunub, indi kənarda qalan və Azərbaycan dövlətinə, dövlətçiliyinə qənim, düşmən kəsilən müxalifət və onun təmsilçiləri haqqında ad çəkmədən fikirlərimi bildirmişəm və bu gün də öz mövqeyimdə qalıram. Hesab edirəm ki, onların tutduğu yol yol deyil. Onlar Azərbaycan dövlətinə və dövlətçiliyinə qarşı antiAzərbaycan qüvvələrlə birləşiblər. İndi necə, mən buna səssizmi qalmayıam, susmalıyammı?

Mən hakim Yeni Azərbaycan Partiyasının (YAP) yaradıcılarından və qurucularından, onun ilk təşəbbüskarlandan biriyəm. Mən bu dövlət və dövlətçilik üçün canımı qoymuşam, canını qoyanlardan biriyəm. Hər zaman heç kimdən, heç nədən çəkinmədən Əliyevçi olmuşam, bu gün də beləyəm, sabah da belə olacam. Eyni zamanda, Heydər Əliyev siyasətinin layiqli davamçısı ölkə prezidenti İlham Əliyevin tərəfdayıram, onun əsgəriyəm, hər zaman onu dəstəkləmişəm, dəstəkləyirəm və bundan sonra da dəstəkləyəcəm. Mənim bir amalım, bir əqidəm, bir sifətim var. Kimsə buna şübhə etməsin və edə də bilməz. Atalarımız da yaxşı deyib ki, görünən dağa nə bələdçi?!

Mənim Azərbaycandakı konstruktiv mövqedə duran - iqtidarlı, müxalifətli bütün partiyalara hörmətim var. Eyni zamanda, parlamentdə təmsil olunan müxalifət partyalarına, onların sədrlərinə, təmsilçilərinə hörmətim var. Parlament üzvü olan YAP-çı həmkarlarıma necə hörmətim, münasibətim varsa, onlara da o cür münasibətim var. Onlar da həmişə bir insan, bir ağsaqqal kimi mənə hörmətlə yanaşıblar, hörmətimi saxlayıblar. Mən nəinki onlar, radikallıqdan, söyüşdən uzaq heç bir müxalifət partiyası və müxalifətçi haqqında heç nə deməmişəm.

Hesab edirəm ki, parlamentdəki müxalifət partiyaları və digər partiyalar ümumilli məsələlərdə, ölkə prezidentinin Azərbaycan naminə ortaya qoyduğun fəaliyyətin, siyasətin dəstəklənməsində bizimlə, hakim YAP-la daim həmrəy olublar, öz dəstəklərini veriblər. Biz bütövlükdə buna İlham Əliyevin yürütdüyü siyasətin bütün xalq tərəfindən dəstəklənməsinin daha bir ifadəsi kimi yanaşırıq. Bu, həqiqətən belədir. Hörmətli Əli müəllim Əhmədovun da dediyi kimi, onlar Azərbaycan siyasətində uzun illər tanınan həmin adamlar hörmət və nüfuz sahibləridir, partiya rəhbərləridir, ziyalılardır. Onlar əhalinin müəyyən qisminin maraqlarını ifadə edir və ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayırlar.

Buna görə də onlara hər zaman hörmət və ehtiramla yanaşıb, onların özləri, fəaliyyətləri müsbət qiymətləndirilib, təqdir edilib, alqışlanılıb. Şəxsən mən özüm də hər zaman bu mövqedə olmuşam və kimsənin də haqqında artıq-əskik fikirlər səsləndirməmişəm. Əgər indi kimlərsə mənim sözlərimdən narazı qalıblarsa, demədiyim sözləri öz adlarına çıxıblarsa və ya kimlərsə ara qarışdırmaq, məni və mənim timsalımda YAP-ı ortaya atmaq, gərginlik yaratmaq istəyirlərsə, səhv edirlər, yanlış yoldadırlar. Mən nə dediyimi, kimlər haqqında nə danışdığımı yaxşı bilirəm və onların da üstündə qalıram...

***-Yəni, bir daha vurğulayırsınız ki, Sizin fikirlərinizin onlara şamil olunması düzgün deyil və kimlərinsə "özfəaliyyəti"nin nəticəsidir...***

-Bəli, bir daha altını qırmızı xətlərlə çızaraq bildirmək istəyirəm ki, mənim siyasi partiyalarla, o cümlədən, parlament partiyaları və parlamenti müxalifəti ilə heç bir işim olmayıb və yoxdur. Axı, nəyə görə, onlar haqqında nəsə deməliyəm? Deməmişəm axı...Kimlərsə araqarışdırmaq, dediklərimi başqa yerə yozub, gərginlik yaratmaq, YAP-ı, iqtidarı haqsızcasına və vicdansızcasına suçlamaq istəyirlərsə, böyük səhvə və yanlışlığa yol verirlər. Heç bir haqları və əsasları yoxdur. Dediyim kimi, onlara, konstruktiv müxalifət partiyalarına, parlamentdə təmsil olunan müxalifətə və digər partiyalara hər zaman ehtiramla yanaşmışam və bu gün də öz mövqemdəyəm. Mən keçmişdəkiləri, radikalları, söyüşcülləri, böhtançıları nəzərdə tutmuşam və mövqeyimin də haqlı olduğunu düşünürəm. Kimsə də mənim sözlərimdən istifadə edib, YAP-ın, iqtidarın üzərinə gedə bilməz.

## "Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayır"

Ermənistanın baş naziri Nikol Paşinyan avqustun 6-da Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində keçirilmiş "7-ci erməni oyunları"nın açılış mərasimində çıxışı zamanı sözügedən oyunlarda ilk dəfə olaraq bəzi ölkələrin, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin də iştirak etməsini qeyd etmişdi.

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu xüsusda, həmin ölkələrin Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən bu tədbirə qatılması ilə bağlı hansı tədbirlər görməsi ilə bağlı KİV-in sualını cavablandırıb.



XİN rəsmisi deyib: "İlk dəfə deyil ki, Ermənistan rəsmilərinin həqiqəti əks etdirməyən bəyanatları ilə üzləşirik. Qeyd etdiyiniz məsələ ilə bağlı Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə nota ünvanlayıb. Cavab notasında nazirlik bildirib ki, Dağlıq Qarabağ ərazisində keçirilən tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin heç bir nümayəndəsi iştirak etməyib. Göründüyü kimi, Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayaraq, qanunsuz separatçı rejimin guya "tanınması" görüntüsünü yaratmaq istəyir. Öz növbəsində, bütün bu kimi cəhdlər sonda yayılan yalan məlumatların ifşası ilə nəticələnir".

# Patruşevin Bakı müzakirələri: qlobal və regional geosiyasi reallıqlar fövqündə

***Con Boltonun Ukrayna, Moldova, Belarus, Polşa turnesinin analizi başa çatmamış Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev Azərbaycana səfər etdi. Ekspertlər ABŞ Prezidentinin müşavirinin Şərqi Avropaya səfərini nə dərəcədə gözlənilməz hesab edirdilərsə, N.Patruşevin də Bakıya gəlişinə elə qiymət verməyə çalışdılar. Məsələ həm də N.Patruşevin avqust ayında Ermənistana səfəri fonunda maraq doğururdu. Bu cür müqayisələr təsadüfi deyil. Söhbət Avrasiya məkanında ciddi geosiyasi rəqabət aparan iki böyük dövlətin təhlükəsizlik məsələləri ilə məşğul olan rəsmilərinin geosiyasi baxımdan həssas olan regionlara səfərlərindən gedir. Onlar hansı təkliflərlə gəlmişdilər? C.Bolton və N.Patruşev ümumi şəkildə təhlükəsizlik məsələsinə əhəmiyyət verdiklərini ifadə ediblər. Ancaq konkret olaraq bu ifadələrin arxasında hansı faktlar dayanır? Xüsusilə N.Patruşev hansı məqamları müzakirə edə bilərdi? Bu kimi suallara cavab üzərində geniş dayanmağa ehtiyac gördük.***

## Cənubi Qafqaza ikinci gəliş: Patruşev nəyi müzakirə edib?

Nikolay Patruşevin avqustda İrəvana etdiyi ikigünlük səfərinə erməni ekspertlərin münasibəti birmənalı olmadı. Rusiya və Ermənistanın təhlükəsizlik sahəsində yaxından əməkdaşlığı faktdır, lakin bir sıra məqamlara ekspertlər istehza ilə yanaşdılar. Konkret olaraq, hansı detalların müzakirə edildiyi haqqında informasiya ala bilmədiklərindən gileylənən ekspertlər tərəflərin standart ümumi frazalardan istifadə etdiyinə diqqət çəkdilər. Yekun olaraq isə belə qənaət yaranmışdı ki, tərəflər müxtəlif məsələləri müzakirə etsələr də, qarşılıqlı anlaşmaya varıldığını deməyin çətin olduğunu da qəbul etmək gərəkdir. Ekspertlər Nikol Paşinyanın lazımsız yerlərdə “suverenlikdən dəm vurması”nın Ermənistana zərər verdiyini də vurğulayırdılar.

Daha maraqlısı N.Patruşevin Azərbaycana səfəri öncəsi Ermənistan mətbuatında dərc olunan yazılarda özünü göstərib. İndi ermənilər yazırlar ki, N.Patruşev Ermənistanın ''Amulsar” qızıl mədəninə amerikan-ingilis şirkətinin buraxılmaması üçün İrəvana göstəriş verməyə gəlibmiş. O gedəndən sonra N.Paşinyan həmin işlə bağlı iki nəfəri vəzifəsindən uzaqlaşdırıb.

Belə görünür ki, ya N.Patruşevin Ermənistanda apardığı müzakirələrin əsl məzmununu gizlətmək üçün müxtəlif şayiələr yayılır, ya da Rusiya rəsmisi İrəvanda erməni hakimiyyətini müəyyən məsələlərlə bağlı möhkəm tənbeh edib. Bir sözlə, bunlar ermənilərin öz işləridir. Lakin N.Patruşevin sentyabrın əvvəllərində Azərbaycana səfər etməsinə marağın böyük olması fonunda Ermənistan səfəri də düşündürücü görünür. Məsələ ondan ibarətdir ki, N.Patruşev Rusiyanın Təhlükəsizlik Şurasının katibi kimi ciddi səlahiyyətlərə malikdir. Və o, ''Amulsar” kimi xırda məsələlərə görə İrəvana səfər etməzdi.

Rəsmi yayılan informasiyalardan görünür ki, N.Patruşev kibertəhlükəsizlik, informasiya təhlükəsizliyi, terror, ekstremizm və digər məsələlərlə yanaşı, dövlətlərarası əməkdaşlığın mühüm aspektlərini də müzakirə edib. Məsələn, Azərbaycanla hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsi məsələsi müzakirə olunub, iki ölkə arasında münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və bütün digər sahələrdə uğurla inkişaf etdiyi qeyd edilib. Bundan başqa, hər iki ölkənin dövlət başçıları arasında səmimi münasibətlərin əlaqələrin inkişafında rolu vurğulanıb. Tərəflərin ekstremizmə, terrorçuluğa qarşı mübarizə ilə bağlı qanunvericilik və əməkdaşlıq məsələlərini müzakirə edəcəyi bəyan edilib.

Azərbaycan ekspertləri daha konkret səviyyədə müzakirəsi ehtimal olunan məsələlərə də diqqət yetiriblər. Həmin sırada İranla bağlı vəziyyətin daha da mürəkkəbləşməsinin regionda meydana gətirəbiləcəyi risklərin təhlili də vardır. Digər məsələ kimi Azərbaycan, Rusiya və İran dövlət başçılarının görüşünün təxirə salınması səbəbləri və N.Paşinyanın Dağlıq Qarabağla bağlı ifadə etdiyi məsuliyyətsiz və populist fikirləri göstərilir. Bunların fonunda N.Paşinyanın bir neçə müddətdir ki, vəziyyəti gərginləşdirən və faktiki olaraq, Azərbaycanı hərbi əməliyyatlara başlamağa təhrik edən bəyanatlarının müzakirəsi ağlabatan görünür. Ekspertlər hesab edirlər ki, N.Paşinyan bunu sifarişlə edir və məqsədi Ermənistanın müharibədə məğlubiyyətindən sonra Rusiyanı ittiham etməkdir. Bunun əsasında da Ermənistanı geosiyasi aspektdə o, Qərbə tərəf istiqamətləndirmək fikrindədir.




## “Böyük oyun”un fraqmenti: geosiyasi mübarizə güclənir

Doğrusu, bu mövqe o qədər də inandırıcı görünmür, çünki forpost ölkə Rusiyanın tam nəzarəti altındadır və Moskvanın icazəsi olmadan hərb meydanında bir addım belə ata bilməz. N.Paşinyanın özündənrazı danışmasının arxasında da məhz bu məqam dayanır. Yəni “Dağlıq Qarabağda hərbi əməliyyatlara başlasanız, Ermənistanla deyil, Rusiya ilə toqquşmalı olacaqsınız”. Əlbəttə, rəsmi Bakı hər bir inceliyi çox yaxşı anlayır və hər hansı təxribata qətiyyən getməz.

N.Patruşevin səfərinin mühüm geosiyasi və təhlükəsizlik aspekti, bizcə, başqa məqamlardadır. N.Patruşevin məsul olduğu sahənin miqyasını nəzərə alsaq, burada qlobal proseslərin məntiqini unuda bilmərik. Konkret olaraq, ABŞ-İran, ABŞ-Türkiyə və ABŞ-Rusiya münasibətlərinin dinamikasına diqqət yetirmək lazımdır. Aydın görünür ki, Amerika bütövlükdə postsovet məkanında daha fəal siyasətə keçir. Bunun bariz nümunəsi Şərqi Avropada, konkret desək, Ukrayna, Belarus və Moldovada özünü göstərir. Buraya Polşanı da əlavə etmək gərəkdir. ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşavirinin son səfər marşrutu bu baxımdan özündə xeyli informasiya daşıyır.

Və N.Patruşevin Cənubi Qafqaz səfəri həmin səfərlə demək olar ki, zaman baxımından sinxronluq təşkil edir. O, Tbilisiyə məlum səbəblərdən gedə bilmir. Ancaq İrəvan və Bakıya gəlir. Belə təəssürat yaranır ki, Cənubi Qafqazda da geosiyasi rəqabət şiddətlənə bilər. Amerika Şərqi Avropada olduğu kimi, Cənubi Qafqazda da antirusiya fəaliyyətini canlandıra bilər. Bu məsələ avtomatik olaraq regionda İran və Türkiyə faktorunu da aktuallaşdırır.

Konkret olaraq, Rusiya İrana qarşı hər hansı bir aksiyada Cənubi Qafqaz dövlətlərinin iştirak etməməsini istərdi. Eyni zamanda, Türkiyəyə qarşı da hansısa hərəkətin olmasını arzulamazdı. Bu məqam birbaşa Ermənistana aiddir. Onun Qərbdəki havadarları Ankaranın müstəqil siyasətinə zərbə vurmaq üçün ermənilərdən terror, ekstremizm və separatçılıqda istifadə etməyə çalışarlar. Moskva bilir ki, Türkiyə bu kimi cəhdlərin qarşısını qətiyyətlə alır və bu səbəbdən İrəvanın ağlını başına yığması lazımdır.

Əlbəttə, söhbət təhlükəsizlikdən getdikdə, obyektiv olaraq, müdafiə məsələsi də aktuallaşır. Bu baxımdan N.Patruşevin hərbi-texniki əməkdaşlığı inkişaf etdirməkdən bəhs etməsi təsadüfi deyil. Moskva Cənubi Qafqazdakı tərəfdaşlarını hərbi cəhətdən təmin etməklə həm onların başqalarının təsiri altına düşməsinə əngəl olur, həm də hərbi baxımdan özü üçün daha aydın olan bir mənzərə yaradır.

Bunların fövqündə isə ümumiyyətlə, ölkə rəhbərləri arasında əməkdaşlığın və şəxsi münasibətlərin yüksək səviyyədə olması da şərt kimi görünür. Rusiya və Azərbaycan rəhbərliyi hər iki məsələdə kifayət qədər yaxın münasibətdədirlər. Deməli, N.Patruşev Rusiya Prezidentinin belə bir münasibətdən məmnun olduğunu və onu davam etdirmək əzmini ifadə edib.

Qeyd edilənlərin fonunda regional təhlükəsizliyin təmini məsələsinin vacibliyi aydın görünür. Rusiya burada hansısa qarışıqlığın olmasında maraqlı olmadığını nümayiş etdirir. Çünki Moskva, faktiki olaraq, Avrasiyada birləşdirici funksiyasını yerinə yetirməyə başlayıb. Bunu təsdiq edən faktlardan biri Vladimir Putinin Hindistanın baş naziri Narendra Modi ilə görüşdə yeni güclü təşkilatın yarana biləcəyi mesajını verməsidir. O, G7-dən də böyük olacaq və Rusiya ilə yanaşı, Türkiyə, Çin, Hindistanın da iştirak edəcəyi yeni təşkilatın formalaşmasının mümkünlüyünü vurğulayıb.

Belə çıxır ki, Cənubi Qafqazın da daxil olduğu böyük bir geosiyasi məkanda ciddi proseslər gedir. Artıq yeni səviyyədə qüvvələr balansının formalaşma ehtimalı özünü göstərir. Coğrafiyaya baxsaq, Türkiyə, İran, Rusiya, Hindistan, Çin kimi böyük dövlətlərin bir yerdə olacağı təşkilatda Cənubi Qafqazın taleyi də həll oluna bilər. Bu zaman, təbii ki, hər bir ölkənin öz funksiyası olacaq. Məsələn, Ermənistan təlimatlar yerinə yetirən forpostdan yüksək status ala bilməz.

Azərbaycanla isə regional məsələləri məsləhətləşməlidirlər. Çünki Azərbaycan regional liderdir və konkret fəaliyyəti ilə geniş məkanda proseslərə təsir edə bilir. Məsələn, enerji təhlükəsizliyinin təminində, sivilizasiyalar, mədəniyyətlər və dinlərarası dialoqun təşkilində və “Bir kəmər, bir yol” layihəsinin reallaşmasında aktiv iştirak edir.

Beləliklə, N.Patruşevin Azərbaycan səfəri regional geosiyasi proseslərlə qlobal trendlərin kəsişməsində aktuallıq kəsb edir. Zaman Moskva-Bakı əməkdaşlığının perspektivinin yüksək olduğunu təsdiqləyəcək.

***Newtimes.az***

# Paşinyan öz hördüyü tora düşdü

## İşğalçı ölkənin baş nazirinin Rusiyaya qarşı sərt bəyanatları onu çıxılmaz vəziyyətə salıb



***Son günlər, ardıcıl olaraq, işğalçı ölkə olan Ermənistanda ara yenidən qarışıb. Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya qarşı sərsəm bəanatları, bir tərəfdən küçə "demokratı"nın erməni xalqına verdiyi vədlərin elə küçədə qalması, bir tərəfdən də, xarici siyasətdə savadsızlığı ölkədə vəziyyətin çətin duruma düşməsinə səbəb olub. Ən başlıcası isə, Nikol Paşinyan çoxsaylı sədaqət andlarına rəğmən, Moskva ilə münasibətləri heç cür qaydaya sala bilmir. Kremldə hələ də ona şübhəli nəzərlə, "gizli qərbçi" kimi baxırlar. Eyni zamanda, Qərbin özü də Paşinyanı "doğma" hesab eləmir, əksinə, rusun Ermənistanda növbəti sadiq canişi sanır. Bunu Ermənistan Təhlükəsizlik Şurasının katibi, Nikol Paşinyanın yaxın adamlarından və "Soros uşaqları"ndan olan Armen Qriqoryanın təzəcə başa çatan uğursuz ABŞ səfərindən də görmək mümkündür. Qriqoryanı Amerikada heç Trampın milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton da qəbul eləmədi...***

Bu, gözlənilən idi. Çünki Paşinyan Kremlə bağlı Qarabağ klanı ilə, Dağlıq Qarabağdakı separatçı rejimlə münasibətlərin sərt xarakter aldığı, müharibə riskinin artdığı zamanda, yeganə oğlunu od-alovun içində, təhlükəli rəqiblər üçün potensial girov qismində Qarabağda saxlaya bilməzdi. Rusiya ilə münasibətlərdə yaşanan gərginlik və s. bütün bunlar Paşinyanı heç vaxt olmadığı qədər ayıq-sayıq olmaq zorunda qoyur.

### Paşinyan nə əldən qoyur, nə də...

Bir məqamı da, xüsusi olaraq, vurğulamaq lazımdır ki, ekspertlər Paşinyanın hakimiyyətə gəldiyi ilk günlərdən qeyd etmişdilər ki, onun siyasətçi kimi Ermənistanda sosial-iqtisadi vəziyyəti düzəltmək, cəmiyyətin siyasi atmosferini müsbət istiqamətdə dəyişmək üçün heç bir resursu mövcud deyil. Ola bilsin ki, Paşinyan 27 ildən artıq bir vaxtda jurnalist fəaliyyəti ilə məşğul olub və ölkədə gedən siyasi proseslərdən azdan-çoxdan məlumatlıdır. Amma ümumiyyətlə, bu insan heç bir idarəetmə qabiliyyətinə malik deyil. İkinci bir məqam isə, ondan ibarətdir ki, o, hakimiyyətə kifayət qədər hazırlıqsız bir vəziyyətdə gəldi. Yəni Ermənistanda hakimiyyətə gəlmək üçün, hər şeydən öncə, ölkəni ağır sosial-iqtisadi durumdan qurtarmaq, bunun üçün xüsusi hazırlanmış bir platformaya sahib olmaq lazım idi. Paşinyanın belə bir platforması yox idi. Aydın görünür ki, Paşinyan xarici qüvvələrin aləti idi. Sadəcə, o hakimiyyətə gəlməli idi və gəldi.

Bu baxımdan, bu gün Ermənistandakı vəziyyət Sarkisyanın hakimiyyəti dövründəki vəziyyətdən heç nə ilə fərqlənmir. Əksinə, vəziyyətin daha da ağırlaşdığını demək üçün əsaslı səbəblər var. Məsələn, Paşinyanın davranışlarına əsasən, demək olur ki, onun əsas məqsədi hakimiyyətdəki mövqelərini möhkəmləndirməkdən ibarətdir. Çünki aydın dərk edir ki, hakimiyyətə gəlməmişdən öncə, verdiyi vədləri həyata keçirə bilmir. Hər şeydən qabaq, bunun üçün Ermənistanın özünün resursları yoxdur. Azərbaycan və Türkiyə ilə sərhədlər bağlıdır, iqtisadiyyatı birbaşa Azərbaycana bağlı olan Gürcüstanın Ermənistana verə biləcəyi heç nə yoxdur, İran və dünya dövlətləri arasındakı münasibətlər isə hər kəsə məlumdur. Bu baxımdan da, Ermənistanın kimdənsə yardım almaq imkanı yoxdur. Digər amil Rusiya ilə bağlıdır. Bu, bir faktordur ki, Rusiya Ermənistanı həm hərbi, həm də iqtisadi cəhətdən hər zaman dəstəkləyib. Amma bu gün vəziyyətdə bir qədər qeyri-müəyyənlik müşahidə olunmaqdadır. Bu gün isə Paşinyanın mövqeyi bilinməzdir, daha doğrusu, Nikol iki meydanda oynamağa çalışır. Həm özünü Rusiyaya loyal göstərir, həm də Qərbdən müəyyən bir imdad diləyir. Bu gün Paşinyan hakimiyyətinin yarıtmaz siyasəti erməni xalqında xəyal qırıqlığı yaradır.



### Erməni xalqı, artıq "Qarabağ kartı"ndan doyub

Bütün bu bəlaların baş verməsində əsas faktor N.Paşinyanın Dağlıq Qarabağa qanunsuz səfərləridir ki, bu səfərlərin arxasında bir neçə əsas məqam dayanır. Birincisi, Paşinyan da Sarkisyan kimi, özünün siyasi oyunlarını Qarabağ məsələsi üzərində qurmağa çalışır. Sarkisyan müharibənin içərisindən çıxmış bir adam idi. Ermənistanın müdafiə naziri işləmişdi. Ona görə də, bu müharibədən özünün siyasi hakimiyyətini möhkəmləndirmək üçün istifadə edirdi. Amma Paşinyan bu proseslərin içərisində olmayıb. O, sadəcə, Sarkisyanı yamsılamaqla, Qarabağ məsələsindən siyasi hakimiyyətini möhkəmləndirmək üçün istifadə etməyə çalışır. Paşinyanın baş nazir seçildikdən sonra Dağlıq Qarabağa səfərlər edib orada şovinist çıxışlar etməsi, yenə də müharibə əhval-ruhiyyəli ritorikaya üstünlük verməsi erməni xalqının rəğbətini qazanmağa hesablanıb. Amma erməni xalqı artıq, "Qarabağ kartı"ndan doyub.

### Azərbaycan Prezidentinin qətiyyətli diplomatik fəaliyyəti

Bəli, münaqişənin həlli ilə bağlı əldə olunan nailiyyətlər, bir daha sübut edir ki, bu gün Azərbaycan Prezidenti Ermənistan üzərində, artıq qətiyyətli diplomatik qələbəsini çalıb. Uzun müddət idi deyirdik ki, biz, ilk növbədə, münaqişənin diplomatik həllinin tərəfdarıyıq. Ölkə Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında qeyd edib ki, keçən zaman Azərbaycanın xeyirinədir. Bəli, bu gün müşahidə etdiyimiz reallıqlar göstərir ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin müdrikcəsinə dediyi ifadələr reallıqda öz əksini tapmaqdadır. Həqiqətən də, bu gün Azərbaycan və Ermənistanın mövqeyi arasında müqayisə olunmayacaq dərəcədə fərq vardır. Azərbaycan kifayət qədər güclü bir ölkə, Ermənistan kifayət qədər güclü bir forpostdur. Biz müharibə etsəydik, çox böyük itkilər verə bilərdik, iqtisadiyyatımızı bu qədər inkişaf etdirə bilməzdik, həm Azərbaycan, həm də region üçün qlobal müstəvidə çox böyük əhəmiyyət kəsb edən enerji layihələrini həyata keçirə bilməzdik. Təbii ki, dövlət siyasətimizin ana xəttini Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsi təşkil edir. Artıq Azərbaycan sürətlə bu məqsədinə yaxınlaşmaqdadır və bu günün reallığı onu göstərir ki, həqiqətən də, zaman Azərbaycanın xeyirinə işləyir.





### Erməni xalqı həqiqətləri anlayır, Paşinyan isə səhvlərdən ibrət dərsi çıxarmır

Beləliklə, Azərbaycan Prezidentinin uzun illərdir bəyan etdiyi həqiqətləri erməni xalqı indi anlamağa başlayıb. Onlar indi dərk edirlər ki, ölkənin səfil vəziyyətə düşməsinin səbəbkarı sırf Qarabağ kartı üzərində hakimiyyətini qorumaq istəyən hərbi xunta olub. Gec də olsa, bunun fərqinə varan erməni xalqı hakimiyyəti devirsə də, heç də küçə "demokratı" Paşinyan əvvəlki hakimiyyətin səhvlərindən ibrət dərsi çıxarmadığı görünməkdədir. Bu gün Ermənistanın ağır vəziyyəti əvvəlki hakimiyyətin gününə şükür dedizdirir.

Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın dalan ölkəyə çevrilməsi və bunun əsas səbəbinin, məhz işğalçılıq siyasətini davam etdirməsi olduğunu dönə-dönə bəyan etməsi, əslində, bu ölkənin düşdüyü vəziyyətin qısa xülasəsidir. Dövlət başçısının bu çıxışı, eyni zamanda, Ermənistan xalqına və hakimiyyətinə bir xəbərdarlıq mahiyyətindədir. Ermənistan xalqı həqiqətləri vaxtında dərk etsəydi, ölkə hazırkı iflic vəziyyətə düşməzdi. Dağlıq Qarabağ probleminin həllinin yubanması bu ölkənin vəziyyətini daha da ağırlaşdırır.

Erməni xalqı, özü də etiraf edir ki, Ermənistanın torpaqlarımızı işğal altında saxlaması nəticəsində, Azərbaycan Ermənistanı iqtisdi, siyasi və nəqliyyat dalanına dirəyib. Ermənistan bu blokadadan çıxmaq üçün işğalçılıq siyasətindən əl çəkməlidir.

### Paşinyanın puç olan "gurultulu" vədləri

Nikol Paşinyan Ermənistanda baş nazir olan məqamda bir sıra "gurultulu" vədlərlə, o cümlədən, Ermənistanda demoqrafik göstəricilərin yaxın perspektivdə yaxşılaşacağını vəd edirdi. Bütün vədlər kimi, populizm üzərində qurulan bu vədlər də reallığa söykənmirdi. Ancaq son statistik rəqəmlər fərqli mənzərini ortaya qoydu. Məlum oldu ki, Ermənistanda Paşinyanın, irəli sürülən iddialarını həyata keçirmək üçün, heç bir resurs mövcud deyil. Sovetlər dağılandan sonra bu ölkənin əhalisi 3 milyon nəfərə çatmayıb. İllik doğulanlarla ölənlərin fərqini nəzərə alsaq, 30 ildə bu ölkədə əhalinin artımı 300 mindən çox olmayacaq. Rəsmi məlumatlara əsasən, Ermənistanda ildə 38-39 min nəfər doğulur. Hər min nəfərə düşən ölənlərin sayı isə 28-30 min nəfər təşkil edir. Belə çıxır ki, Ermənistan əhalisinin sayı ildə 10 min nəfər artacaq, 30 ildə isə bu rəqəm 300 min nəfər təşkil edəcək. BMT-nin hesablamasına görə, 2050-ci ildə, ən pis halda, 2 milyon 573, orta vəziyyətdə 2 miyon 816, ən yaxşı halda isə, 3 milyon 65 min nəfər, 2100-cü ildə isə, ən pis halda, 1 milyon 207 min, orta vəziyyətdə 2 milyona çata bilər. Ötən ilin uyğun dövrü ilə müqayisədə ölkə əhalisinin sayı 8500 nəfər azalıb. Politoloqların sözlərinə görə, bu durumda Paşinyanın hakimiyyəti uzun çəkməyəcək. Artıq ölkədə vəziyyət getdikcə ağırlaşır, erməni xalqı yenidən mitinq və aksiyalar keçirməkdədirlər. Çünki boş vədlər və reallaşmayan siyasi-iqtisadi islahatlar fonunda Paşinyanın erməni ictimaiyyətində reytinqi düşməkdədir. Ən yaxşı halda, o, sələfləri kimi güc yolu ilə hakimiyyətini saxlamağa çalışacaq. Ancaq erməni xalqı mütləq şəkildə Paşinyandan hesab soracaq.

Ümumiyyətlə, real vəziyyət, onu sübut edir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. İşğalçı Ermənistanın baş naziri Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparır. Deməli, yekun eyni olacaq, daha dəqiqi, daha pis olacaq... Bu isə, bir daha o deməkdir ki, Ermənistanın sosial bəlalardan xilas yolu rəsmi Bakıdan keçir.

***A.SƏMƏDOVA***

# Bu gün Hicri-Qəməri təqvimi ilə Məhərrəm ayının 10-cu günü - Aşura Günüdür

*Azərbaycan dünyəvi və müasir dövlət olmaqla yanaşı, milli dəyərlərə, hörmətlə yanaşan ölkədir*

***Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşadığı Azərbaycanda hər kəs dini mənsubiyyətindən, irqindən asılı olmayaraq, azad və sərbəst fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir: "...Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması, bumeranq effekti verəcək və nəticədə, bu işlə məşğul olanların özlərinə xələl gətirəcək".***



Azərbaycanda dindarların sərbəst surətdə ibadət etmələri üçün dövlət tərəfindən hər cür şərait yaradılıb və məzhəb mehribanlığı mövcuddur. Bunun əsas səbəbi Azərbaycandakı din-dövlət münasibətləridir. Bu, onu göstərir ki, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənənələrində böyük hörmətlə yanaşan bir ölkədir. Azərbaycan tarixən tolerant ölkə olub və hazırda bu, dövlət siyasəti kimi, ölkə rəhbərliyi tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə 13 kilsənin və 7 sinaqoqun fəaliyyəti əsas göstəricidir. Azərbaycanın dünya tolerantlığına verdiyi töhfə beynəlxalq aləmdə nümunə kimi qiymətləndirilir.

Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə olan münasibəti əməli fəaliyyətdə aydın görünür. Ölkəmizdə iki mindən artıq məscidin olması fikrimizi əsaslandırır.

## Tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi və həyat tərzimizi əks etdirən dini mərasimlər

Ölkəmizdə keçirilən dini mərasimlər tariximizi, mədəniyyətimizi, adət-ənənələrimizi və həyat tərzimizi əks etdirir. Dini mərasimlər arasında Məhərrəmlik mərasimləri də tarixi adət-ənənələrimizə söykənir. Aşura Günü müsəlmanların yaddaşında mühüm hadisələrin baş verdiyi gün kimi yadda qalmışdır. Hicri-Qəməri təqvimi ilə bu gün Məhərrəm ayının 10-cu günü - Aşura Günüdür. Müsəlmanlar Aşura Günündə İmam Hüseynin (ə) şəhid edilməsinə görə geniş şəkildə əzadarlıq mərasimləri keçirirlər.

"Aşura" ərəb sözüdür və onuncu deməkdir. Tarixi mənbələrə əsasən, Kərbəla hadisəsindən əvvəl də, Aşura Gününə müsəlmanlar arasında özünəməxsus şəkildə önəm verilib. Lakin hicrətin 61-ci ilində Məhərrəm ayının 10-da İmam Hüseyn (ə) və onun 72 səhabəsi İraqın Neynəva əyalətində yerləşən Kərbəla səhrasında zalım Bəni-Üməyyə xəlifəsi Yezid ibn Müaviyə tərəfindən şəhid edilib. İmam Hüseynlə (ə) birgə bütün 72 nəfərin başı bədənindən ayrılır. Başsız bədənlər üstündə atlar çapılır. Başlar isə, nizələrə vurularaq, digərlərinə ibrət olsun deyə, İraq və Şam şəhərlərində gəzdirilir. İmam Hüseynin (ə) ailəsi isə əsir götürülür və Dəməşqə Yezidin hüzuruna aparılır. Hadisənin 14 əsr öncə, baş verməsinə baxmayaraq, hər il bu olayı yüz milyonlarla insan xatırlayır və onu digər nəsillərə təlim edir.

İmam Hüseyn ibn Əli (ə) Həzrəti Məhəmməd (s) Peyğəmbərin nəvəsi olmaqla yanaşı, həm də, birinci İmam Həzrət Əlinin (ə) oğlu, eyni zamanda, müsəlman ümmətinin üçüncü imamıdır. İslam Peyğəmbərinin ən sevimlisi olan İmam Hüseyn (ə) Hicri tarixinin 4-cü ilinin Şaban ayında dünyaya göz açıb. Peyğəmbərdən nəql edilən çoxsaylı hədislərə görə, o, cənnət gənclərinin ağasıdır. Qurani-Kərimdə "Əhzab" surəsinin 33-cü ayəsinə əsasən, beş müqəddəs insandan təşkil edilmiş Əhli-beyt ailəsinin biridir. Səhabələrdən nəql edilən hədislərə əsasən, o, Peyğəmbərin ən sevimli nəvələrindən olub və Həzrət Məhəmməd (s) Hüseyn (ə) düşmənlərini hələ öz sağlığında Peyğəmbər düşmənləri adlandırıb. Aşura Günü baş verən faciə islam dünyasında yeni və ciddi siyasi hərəkatlar yaradır. Tövbəkarlar qiyamı, Zeyd ibn Əlinin qiyamı, daha sonra Yəhya ibn Zeydin, Nəfsi Zəkiyyə, Məhəmməd ibn Qasim, Təbatəbai Hüseyni və Təbəristanlı Ələvilərin qiyamı və zülmkar hökumətlərə qarşı digər qiyamlar Aşura faciəsinin nəticəsində baş vermişdir.

Aşura faciəsi, bir daha sübut edir ki, zülm və işğalçılıq fədakarlıq, qorxmazlıq və mərdliyin qarşısında acizdir, həmişə də aciz qalacaq. Bunu İmam Hüseynin (ə) Kərbəlada göstərdiyi şücaət və mərdanəlik sübuta yetirib.

Bu gün Aşura faciəsi digərlərindən fərqlənir. Onu yaşadan və xatirələrdən silinməsinə imkan verməyən əsas amil, ondan ibarətdir ki, Aşura heç bir qurum tərəfindən təbliğ edilmir və ona sevgi ədalət sevərlərin öz içindən qaynaqlanır.

Aşura Günü qanvermə aksiyalarının təşkil olunması Azərbaycanın dini ənənələrə və xüsusən də, Kərbəla hadisəsinin qeyd olunmasına daha bir humanist töhfəsidir. Ümid edirik ki, dünyanın digər bölgələrində Aşuranı qeyd edən müsəlmanlar Azərbaycanda mövcud olan bu humanist ənənəni mənimsəyərək, Məhərrəmlik mərasimlərini islamın və Kərbəla şəhidlərinin şəninə uyğun şəkildə qeyd edəcəklər.

Xalqımız tarixi ənənələrinə söykənir və hər il Aşura mərasimi ilə bağlı qanvermə aksiyaları keçirilir. Bu gün də, ənənəyə uyğun olaraq, ölkəmizin müxtəlif məkanlarında qana ehtiyacı olan xəstələrə yardım məqsədi ilə könüllü qanvermə aksiyası keçiriləcək.

***Rəfiqə HÜSEYNOVA***

## "Rusiya-ABŞ münasibətləri bir-birinə zidd iki xətt üzrə inkişafdadır"



***"Rusiya-ABŞ münasibətləri bir-birinə zidd 2 xətt üzrə inkişafdadır". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***

Mərkəz sədrinin sözlərinə görə, ABŞ prezidenti D.Tramp Rusiya ilə münasibətləri irəlilətmək istəyir: "Hətta Rusiyanın yenidən G-7 formatına qayıdaraq G-8 formatına çevrilməsini təklif etdi. Bu məsələ G-7-nin Fransada keçirilən sammitində müzakirə olundu, amma konsensus əldə olunmadı. ABŞ Dövlət Katibi M.Pompeo prezident D.Trampın bununla bağlı göstəriş verdiyini və o göstərişə uyğun da ABŞ rəsmilərinin hərəkət etdiyini bildirdi. Rusiya G-7-yə qayıtmalı, G-7 formatı G-8 formatına çevrilməlidir.

ABŞ MDB məkanında yeni siyasət aparmağa başlayıb. Ukrayna, Belarus və Moldovada reallaşdırdığı son prosesləri ABŞ-ın Rusiya üçün yeni hələqə yaratması kimi başa düşmək olar. Ukraynanın ABŞ-ın diktəsi ilə hərəkət etməsi bəllidir. C.Boltonun Moldova və Belarusa səfərləri də kifayət qədər yeni perspektiv yarada bilib. Moldova Rusiyadan təkcə Dnestryanı məsələyə görə deyil, həm də qaz məsələsinə görə asılıdır. Əgər C.Bolton Moldova üçün ucuz qaz məsələsini həll edə bilərsə, Moldovanın Rusiyadan aralanması çox asandır. C.Bolton Moldovaya gəlməzdən bir neçə gün öncə RF Müdafiə naziri S.Şoyqu Moldovada idi və təxminən 15 il bundan qabaq dayandırılmış silahların utilizasiyası prosesinin yenidən başlanması razılaşdırıldı. Dnestryanı bölgədə Rusiyanın silah anbarı məhv edilməsi münaqişənin tənzimlənməsinə çox böyük dinamizm verə bilər. Dnestryanı bölgədəki silah anbarı Rusiyanın Avropa qitəsində ən böyük silah anbarıdır. Böyük təhlükə mənbəyi də olaraq qalır.

C.Boltonun Belarusa səfərini öz sözü ilə belə ümumiləşdirmək olar ki, Belarus prezidenti A.Lukaşenko ilə dil tapmaq mümkündür. Eyni bu qaydada Rusiya da ABŞ-a qarşı borclu qalmır. Rusiya ABŞ-ın talibanla əldə etdiyi razılaşmanın qarantı olmağa hazır olduğunu bəyan etdi.

RF prezidenti V.Putin Fransaya səfər etdi. Fransa prezidenti E.Makron Rusiya nümayəndə heyətinə, prezident V.Putinə xüsusi ehtiram göstərdi. Bu təkcə qonaqpərvərlik anlamında deyildi. O, Rusiyanı sivilizasiyanın bir tərkib hissəsi kimi təqdim etdi və iki böyük millətin- fransız və rus xalqının birgə yaşamalı olduğunu bildirdi. Bu, əsrlər boyu Avropada formalaşmış konsepsiyaya zidd mövqedir. Avropalıların təhtəlşüurunda Rusiya yaxşı halda böyük ərazi, böyük xammal mənbəyidir. Rusiya Avropa sivilizasiyasının tərkib hissəsi deyil. İlk dəfə idi ki, Fransa lideri Rusiyanı Avropa sivilizasiyasının tərkib hissəsi adlandırdı. Görüş zamanı qlobal məsələlər, Suriya, İran, beynəlxalq sabitlik məsələləri ilə yanaşı regional konfliktlər də müzakirə olundu. Müzakirə olunan regional konfliktlər içərisində Dağlıq Qarabağ məsələsi də var idi".

## "Qidanın tərkibinin zənginləşdirilməsi çox aktual bir məsələdir"




Hazırda dünya əhalisinin üçdə bir hissəsi mikronutriyent çatışmazlıqlarına dəmir, vitamin A, fol turşusu, sink və yod çatışmazlığından əziyyət çəkir. Bunlardan ən geniş yayılmışı isə dəmir çatışmazlığıdır. Statistikaya nəzər salsaq görərik ki, hazırda dünyada 2 milyard insan anemiya çatışmazlığı problemi ilə üzləşib.

AZƏRTAC xəbər verir ki, bu barədə Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli Qida Təhlükəsizliyi Agentliyinin tərəfdaşlığı ilə UNİSEF və Qida Məhsullarının Zənginləşdirilməsi Təşəbbüsü tərəfindən təşkil olunan və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə keçirilən unun zənginləşdirilməsi işinin planlaşdırılması, icrası və monitorinqi üzrə regional seminarda deyib.

Agentlik sədri mətbuat nümayəndələrinə bildirib: "Sağlam qida - sağlam insan, sağlam insan - sağlam nəsil deməkdir. Bu gün Azərbaycanda 5 yaşınadək uşaqların 15 faizində dəmir, 24, 2 faizində anemiya qeydə alınıb. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, həmin göstəricilər qadınlar arasında daha yüksəkdir. Onların 34 faizində dəmir, 38 faizində anemiya müşahidə olunur. Hamilə qadınların təxminən 40 faizi anemiyadan əziyyət çəkir. Dəmir çatışmazlığı dəmir defisiti anemiyaların yaranmasına səbəb olur. Bu isə xüsusi həssas əhali qrupunun - qadınların sağlamlığına, dünyaya gətirdikləri uşaqlarının immun sisteminin zəif olmasına, daha çox infeksiyalara məruz qalmasına, fiziki və intellektual inkişaflarına mənfi təsir göstərir. Ona görə də qidanın tərkibinin zənginləşdirilməsi, vitamin və mineral çatışmazlığını aradan qaldırılması böyük əhəmiyyət kəsb edir və çox aktual bir məsələdir.

## Avropa İttifaqı miqrantlara görə Türkiyəyə 5,6 milyard avro ayırıb

Avropa İttifaqı (Aİ) miqrant böhranını həll etmək üçün nəzərdə tutulan 6 milyard avronun 5,6 milyardını artıq Türkiyəyə təqdim edib. BBC telekanalının saytında yer alan məlumata görə, bunu Avropa Komissiyasının nümayəndəsi Nataşa Berto Brüsseldə keçirilən mətbuat konfransında bəyan edib. O əlavə edib ki, qalan məbləğ bu yaxınlarda Ankaraya veriləcək.

Avropa Komissiyasının nümayəndəsi növbəti dəfə bəyan edib ki, Brüssel 2016-cı ilin martında keçirilən sammitdə imzalanmış Aİ-Türkiyə razılaşmasının şərtlərinə sadiqdir. O deyib: "Biz sazişin həyata keçirilməsinə sadiqik və türkiyəli tərəfdaşlarımızdan da bunu gözləyirik".

# Kreml Ermənistandan niyə üz döndərir?

Stanislav Tarasov: *“Çox ziddiyyətli bəyanatlar var, biz anlaya bilmirik ki, Paşinyan, konkret olaraq, nə istəyir”*



**Ermənistanın baş naziri Nikol Paşinyanın ultramilləti “Sasna Srer” partiyasının sədri Jirayr Sefilyanla görüşü ölkədəki politoloqlarla yanaşı, Rusiyanın siyasi analitikləri tərəfindən də sərt tənqid olunub. Belə ki, erməni siyasi şərhçilərinin əksəriyyəti terror üzərində qurulmuş hərəkatın siyasi partiyaya çevrilməsini, sonradan isə, hakimiyyətə yaxın siyasi təşkilat olaraq, fəaliyyət göstərməsini müxtəlif aspektlərdən tənqid atəşinə tuturlar. Bu baxımdan, Paşinyanın sözügedən görüşdəki ifadə və bəyanatları Rusiya tərəfindən də izlənilib və onun barəsində sərt fikirlər səslənməyə başlayıb.**

Bu görüş və görüşdə səslənən fikirlərlə bağlı ermənilərin “ter.am” saytı rusiyalı ermənipərəst politoloq Stanislav Tarasovdan müsahibə alıb və o da, öz növbəsində, Serj Sarkisyan hakimiyyətini tərif edərək, Paşinyanın siyasi idarəçiliyini hədəfə alıb.

“Nikol Paşinyan bir-birinə zidd bəyanatlar verir və biz heç cür anlaya bilmirik ki, Paşinyan, konkret olaraq, nə istəyir və nəyi nəzərdə tutur” deyə rusiyalı syasi analitik, həmçinin, onu da bildirib ki, Jirayr Sefilyanın Moskvanın Paşinyandan qısa zamanda qurtulmaq qərarını verməsi barədə fikirləri dezinformasiya olsa belə, Rusiya hakimiyyəti Ermənistanın mövcud hakimiyyətinin mühüm məsələlərdə hansı mövqedə olmasını anlamır.

Digər tərəfdən, Moskvanın hazırda Paşinyana necə münasibət göstərməsi məsələsinə də toxunan Tarasov qeyd edib ki, Kreml belə məsələlərdə həssasdır: “Moskva obyektivdir və Paşinyanın nə dediyini diqqətlə oxuyur, çox ziddiyyətli bəyanatlar var, biz anlaya bilmirik ki, o, konkret olaraq, nəyi nəzərdə tutur. Deyək ki, Qarabağla bağlı bəyanatları, hətta mənə də aydın deyil. O, gah bəyan edir ki, Qarabağ tərəfi danışıqlarda iştirak etməlidir, gah da deyir ki, Qarabağ və Ermənistan vahiddir, yaxud “Artsax” Ermənistandır. Əgər nəyisə etmək istəyirsənsə et, əgər danışıqlar formatını dəyişdirmək istəyirsənsə, onda onu dəyişməyə cəhd göstər, mövcud formatdan imtina et, konkret gediş elə... Yox, əgər dəyişmək istəmirsənsə, onda belə danışmağa nə gərək var? Danışıqlar köhnə ssenari üzrə gedir, necə ki, əvvəli hakimiyyət də bu ssenari üzrə fəaliyyət göstərirdi, heç nə dəyişilməyib”.

### “Nə zaman Paşinyan desə ki, o, ümumiyyətlə, nə istəyir, bax, onda biz həmin məsələni qiymətləndirib, xoşumuza gəlib-gəlmədiyini deyə bilərik”

Qarabağdan başqa Moskvanın Paşinyanla bağlı digər anlaşılmaz məqamlarının olub-olmamasına da toxunan rusiyalı politoloq qeyd edib ki, Ermənistanın xarici siyasəti daha çox əyalət idarəetməsinə bənzəyir. “Paşinyanın analitikləri regionda baş verənlərlə bağlı zamanla ayaqlaşmağı, proseslərə münasibət bildirməyi bacarmırlar” deyə Stanislav Tarasov onu da bildirib ki, kürd və abxaz məsələlərində qiymətlərə endirimlər etmək lazımdır: “Lakin bütün bunların müqabilində, o, bəyan edir ki, dünya erməniçiliyinin lideri olmaq istəyir... Yenə də bəyanatda ziddiyyətlər var ki, burada konkret istənilən nədir. Nə zaman Paşinyan desə ki, o, ümumiyyətlə, nə istəyir, bax, onda biz həmin məsələni qiymətləndirib, xoşumuza gəlib-gəlmədiyini deyə bilərik”.

### “Mitinqlərdə çıxış etmək deyil, bilik qazanmaq, təhsil almaq və kitabxanalarda oturmaq lazımdır”

Ermənistanın regiondakı çağırışlara adekvat cavab verməməsi məsələsinə toxunan rusiyalı politoloq bildirib ki, bütövlükdə, Paşinyanın müşavirlər aparatı zəifdir və analitik xidmət yoxdur: “Mənə elə gəlir ki, onlar haradasa kitabçalar oxuyublar və indi də oxuduqlarını həyata keçirməyə cəhd edirlər. Bəlkə də, belə düşünmək olardı ki, onlar gənc insanlardırlar və müasir düşüncələrə malikdirlər, ancaq əslində, onlar öz düşüncələri ilə Serj Sarkisyan komandasından geri qalırlar. Mitinqlərdə çıxış etmək deyil, bilik qazanmaq, təhsil almaq və kitabxanalarda oturmaq lazımdır”.

### “Hətta rusiyalı turistlər tərəfindən sevilən Ararat (Ağrı dağı) dağı Ermənistanın ərazisində deyil”

Rusiyalı poltiloq Ermənistanın onun ölkəsindən asılı olduğuna eyham vuraraq, onu da qeyd edib ki, Rusiya Sovet İttifaqı deyil, imperialist Rusiya indi yenidir, tamamilə başqadır, Ermənistanın siyasəti, iqtisadiyyatı Rusiya Federasiyası üçün hansı praktiki maraq kəsb edə bilər: “... Hətta rusiyalı turistlər tərəfindən sevilən Ararat (Ağrı dağı-red.) Ermənistanın ərazisində deyil... Anlamaq lazımdır ki, Rusiya böyük dövlətdir, əgər Ermənistan hesab edirsə ki, onun RF-yə pretenziyaları var, onda özünə yeni partnyor seçsin. Ona kim mane olur ki? Mən yenə də anlamıram ki, nəyə görə Paşinyan, konkret olaraq, bəyan etmir ki, nəyi istəyir və haraya doğru gedir. Qoy desin ki, bəli, o, NATO və ABŞ-la əməkdaşlıq etmək niyyətindədir, Avropa ilə işləyir və s. Onda hər şey aydın olacaq. Lakin göründüyü kimi, o, qəti olaraq bir söz demir. Serj Sarkisyanın vaxtında dəqiq, müəyyən edilmiş mövqe var idi və bu da, bizim xoşumuza gəlirdi”.

Qeyd edək ki, Stanislav Tarasov Kremlə yaxınlığı ilə seçilən və Rusiyanın dövlət rəhbərliyi ilə məsləhətləşmələr aparan politoloqlardandır. Serj Sarkisyanın hakimiyyəti zamanında onun anti-Azərbaycan ritorikalı şərhləri daha mox səslənirdi. Lakin hazırda onun mövqeyi Nikol Paşinyanı sərt şəkildə təhqir hədəfinə çevrilib. Daha dəqiq desək, Kremlin Paşinyana münasibətinin soyuq olması, nəticə etibarı ilə Moskvanın anti-Ermənistan baxışlarına daha çox üstünlük verir.

***Rövşən RƏSULOV***

# İşğalçı həyasızlıq edir, dünya birliyi isə susur

*“İşğal altındakı Azərbaycan torpaqlarında bələdiyyə seçkilərin keçirilməsi münaqişənin sülh yolu ilə həll olunmasına bir əngəldir”*

**Sentyabrın 8-də Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında bələdiyyələrə qondarma seçkilər keçirildi. Təbii ki, bu seçkilərin keçirilməsi Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə əngəl yaradan növbəti addımdır. Dünya birliyinin, xüsusi ilə də, qondarma seçkilərin keçirilməsinə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin seyrci qalması münaqişənin həllinə ikili yanaşmadan başqa bir şey deyil. Söhbət etdiyimiz müsahiblərimiz işğal altında olan Azərbaycan ərazilərində yerli orqanlara seçkilərin keçirilməsini işğalçı Ermənistanın beynəlxalq birliyə qarşı çıxması kimi qiymətləndirdilər və qəsbkar dövlətin cəzalandırılmasının vacibliyini qeyd etdilər.**

### Millət vəkili Azər Badamov: “Bu seçkini ermənilərdən başqa heç kim tanımır və tanıya bilməz”



- İşğal altındakı Azərbaycan torpaqlarında keçirilən hər hansı bir seçki, o cümlədən, sentyabrın 8-də keçirilmiş bələdiyyə seçkisinin heç bir hüquqi əsasi yoxdur. Bu seçkini ermənilərdən başqa heç kim tanımır və tanıya bilməz. Çünki Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və dünya da oranı Azərbaycanın ərazisi kimi rəsmən tanıyır. Bütün bunlarla yanaşı, orada bələdiyyə seçkilərinin keçirilməsi münaqişənin sülh yolu ilə həll olunmasına bir əngəldir. Son vaxtlar Paşinyanın sərsəm bəyanatları və indi də seçkilərin keçirilməsi, ümumilikdə, danışıqlar prosesini qüvvədən salır. ATƏT-in Minsk Qrupunun həmsədrlərinin ermənilərin özbaşınalıqlarını susqunluqla qarşılamasını isə ikili standartların nəticəsi hesab edirəm. Bütün bunlardan sonra Minsk Qrupun həmsədrləri hansı üzlə regiona səfərlər edəcəyini və münaqişə barəsində danışacaqlarını anlamıram. Düşünürəm ki, biz hər zaman Ali Baş Komandanın əmrini gözləməliyik və buna hazır olmalıyıq.

### Azərbaycan Mətbuat Şurasının sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: “İşğalçı cəzasız qala bilməz “



- Uzun illərdir ki, Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində müxtəlif vaxtlarda, müxtəlif “tədbirlər”, “seçkilər”, “referendumlar” keçirilib. Növbəti bir oyunun - sentyabrın 8-də işğal altındakı Dağlıq Qarabağın yerli orqanlarına seçkilərin keçirilməsi qəsbkar Ermənistanın növbəti məkrli planlarının tərkib hissəsidir. Bu seçkilərin heç bir hüquqi əsası yoxdur və ola da bilməz. Çünki, dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. BMT-nin Təhlükəsizlik Şurası qəbul etdiyi 4 qətnaməsi ilə Ermənistanın işğalçı olduğunu və Azərbaycan torpaqlarını işğal etdiyini təsdiq edib. İşğalçı cəzasız qala bilməz. Buna görə, dünya birliyi Ermənistana qarşı siyasi, iqtisadi sanksiyalar tətbiq etməklə, qəsbikara öz yerini göstərməli, Azərbaycanın torpaqlarının boşaldılmasına məcbur etməlidir. Əks-təqdirdə, işğalçı həyasız əməllərini və fəaliyyətini genişləndirə bilər. Bu halda, Azərbaycan sərt tədbirlər görməli olacaq, necə ki, 2016-cı il aprel zəfərini Ermənistana göstərməklə, qısa zamanda böyük ərazilərimizi işğaldan azad etdi.

***GÜLYANƏ***

# Ermənistan hökuməti iqtisadi inqilabdan uzaqdır



Hökumət planı iqtisadi inqilabdan 100 kilometr məsafədədir. SİA Ermənistana məxsus lragir.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Çiçəklənən Ermənistan Partiyasının lideri Qaqik Sarukyan dünən parlamentdə vergi orqanlarının onun müəssisələrində yoxlamalar aparıb-aparmaması barədə soruşularkən deyib. Tsarukyanın sözlərinə görə, hökumətin iqtisadi planı iqtisadi inqilaba səbəb ola bilməz. “Dedim ki, təqdim olunan hökumət planı iqtisadi inqilabın planı ola bilməz. Bu iqtisadi inqilabın bir proqramı olmadığını yaza və imzalaya bilərəm və bu proqram və yanaşma ilə heç bir iqtisadi inqilab ola bilməz. Bu layihə iqtisadi inqilabdan 100 kilometr məsafədədir”, deyə partiyanın lideri Qaqik Sarukyan bildirib.

***İnam Hacıyev***

# Ermənistanda oğurluqla bağlı cinayət hadisələri artıb

Ermənistan polisi bir əcnəbinin cüzdanını oğurlayan şəxsi həbs edib. SİA Ermənistana məxsus lragir.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, sentyabrın 6-da Ermənistanda turist olan 62 yaşlı bir qadın Mərkəzi Polis İdarəsinə müraciət edib. Məlumatda qeyd edilir ki, Ermənisyanda turist olan qadın cüzdanının sənədlər və bank kartları ilə birlikdə oğurlandığını söyləyib. İrəvan Polis İdarəsinin Cinayət Axtarış İdarəsinin əməkdaşları cinayətin ifşasına cəlb olunublar və cinayət törətməkdə şübhəli bilinən şəxsin şəxsiyyəti barədə əməliyyat məlumatı alıblar və ertəsi gün onu tapıblar.

Mərkəzi polis bölməsinə aparılan 30 yaşlı kişi oğurluq etdiyini etiraf edib. Oğurluq qismən açılıb və o müsadirə edilib. Hazırda vəziyyət dəqiqləşdirilir.

MİRİBRAHİM SEYİDOV - 100

# Şərəfli müəllim ömrü

Uzunömürlü insan iki cür olur,
Birinin həyatı illərlə dolur,
Mənadan güc alır ikinci vahid,
Zəka əməyinin bəhrəsi Cavid(əbədi)!

...Bu yazını çoxdan yazmaq istəyirdim. Amma elə həm də onu çoxdan yox, lap çoxdan yazmalıydım. Daha bir əlavə də edə bilərəm: əslində, bu yazıdakılar çoxdan, lap çoxdan, məktəb illərindən başlayaraq hərfbəhərf, sözbəsöz, kəlməbəkəlmə, cümləbəcümlə hafizəmə həkk olan xatirələrdir. Bu yerdə çox səthi bir şəkildə siyasətə keçmək məcburiyyətindəyəm. Dünya azərbaycanlılarının yeganə dövləti olan Azərbaycan Respublikası inkişaf etdikcə ölkəmizin yüksək intellektli, müasir elmi mükəmməl mənimsəyən, dövlət anlayışının millət və xalq üçün nə demək olduğunu anlayan vətəndaşlara ehtiyac daha da artır. Bu işdə məktəb və müəllimlərin üzərinə daha çox məsuliyyət düşür. Bu barədə az sonra...

Mən kənddə doğulub, orta təhsili kənd məktəbində almışam. Məktəbə dəfələrlə torpaqlı yolla gedib, palçıqlı yolla qayıtmışam. Əsasən, bunun əksi olmayıb. Adətən məktəbə gedəndə yollar palçıqlı idisə, çox vaxt həmin gün dərsə getmək təxirə salınırdı. Bütün bunlara baxmayaraq, İnternetin, yüksək texnologiyaların olmadığı bir dövrdə təhsillimiz pis olmayıb. Yeganə təəssüf etdiyim budur ki, sovet ideologiyasının məktəblərə ayrılan hissəsi mənim də zamanımı və mütaliə vaxtımı alan həmin dövr geri qayıdan deyil. Amma görgötür dünyasında məktəb illərində qazandıqlarım daha çox müşahidələrimdən olub. Mətləbə keçməzdən əvvəl ulu öndər Heydər Əliyevin müəllim peşəsi haqqında söylədiyi bir ifadəni xatırladacağam: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".

Bu müdrik ifadələri ulu öndər Heydər Əliyevin dilindən canlı eşitmişdim. Onları yazıda olduğu kimi ifadə etmək istəyi ilə İnternetdə axtarış edəndə bu ifadələri ilk olaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəsmi saytından tapdım. Təbii ki, tam təsadüf olan bir məsələdə qanunauyğunluq da axtarmaq niyyətindəyəm. Çünki haqqında danışmaq istədiyim əziz müəllimin - 92 yaşlı İbrahim Seyidov ömrünün əsas hissəsini Naxçıvanda təhsilin inkişafına sərf edib. Yetərincə sərt və tələbkar, yüksək intellektli, o cümlədən böyük idarəçilik bacarığına malik olan İbrahim Seyidov el arasında Ağa müəllim olaraq tanınıb və bu adla yaşayır. Gəlin etiraf edək ki, sərt və tələbkar rəhbər heç də hər zaman əksəriyyət tərəfindən sevilmir. Xüsusilə nə məktəbdə şagirdlər tələbkar müəllimi, orduda əsgərlər tələbkar komandiri, iş yerində tələbkar müdiri o qədər də sevməzlər. Mən necə, məktəb qaydalarına tam əməl etməyən bir şagird kimi İbrahim müəllimi sevmişəmmi? Bu suala birmənalı cavabım yoxdur. Onu deyə bilərəm ki, ondan yetərincə çəkinmişəm və dərsini oxumuşam. İnsan fənnindən (sovet dövründə yuxarı siniflərdə belə bir dərslik olub) nələr oxumuşamsa bu gün də yadımdadır və məqamında karıma çatır. Amma səmimi qəbul edilsə reallıq belədir: O, sevilməli müəllim olub. Dərsi o qədər rəvan dildə, sadə yolla izah edərdi ki, yaddaşı yerində olan şagird üçün tapşırığı gözdən geçirmək yetərli idi.



Ümummilli lider Heydər Əliyev birinci dəfə siyasi hakimiyyətdə olduğu illərdə indi Ulu Öndərimizin adını daşıyan sarayda Azərbaycan dilində nitq söyləyəndə mən də sonsuz maraqla qulaq asardım. Baxmayaraq ki, təxminən 7-8-ci siniflərdə oxuyan bir şagirdin həmin nitqlərin məzmununu anlaması o qədər də asan deyildi. Ulu Öndərin Azərbaycan dilində çıxışları məktəbdə müəllimlərimizin də əsas müzakirə mövzusu olardı. Həmin dövrlərdə İbrahim müəllimdən eşitdiyin bir ifadəni indi də xatırlayıram: Azərbaycan və rus dillərini eyni dərəcədə mükəmməl bilməsi Heydər Əliyevin fitri istedadıdır.

"Müəllimin savadının bir göstəricisi də onun öz övladlarının necə oxumasıdır!", şüar şəkilli ifadəni də mən İbrahim Seyidovdan eşidəndə təxminən 6-7-ci siniflərdə oxuyurdum. Gözəl bir atalar sözü yadıma düşür: dili də var dilçəyi də. İbrahim Seyidovun öz sahəsi üzrə yüksək bilikli müəllim olmasının məhz əsas göstəricisi onun övladlarının 3-nün öz sahəsi üzrə həm də dövrünün yüksək nəticələrini qazanaraq ali məktəblərə daxil olmasıdır.

Beləliklə, İbrahim Seyidovun bioqrafiyasından kiçik bir hissə: 1955-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) əla qiymətlərlə daxil olan İbrahim müəllim bu qocaman təhsil müəssisəsini fərqlənmə ilə bitirib. Beş il ərzində kimya və biologiya elmlərinin incəliklərini mənimsəyib. Diplomunda "Kimya-biologiya müəllimi və fizioloq ixtisası insan və heyvan anatomiyası və fiziologiyası" ixtisası yazılan İbrahim Seyidovu Bakıda Tarix əleyhinə Mübarizə Mərkəzinə (TMM) işə götürürlər. Lakin doğma Naxçıvana bağlılıq onu Culfa şəhərinə gətirir. Bir müddət burada fizioloq işləyir. Culfa şəhərində - Mərkəzdə Dəmir yolu orta məktəbində, şəhər gündüz orta məktəbində, axşam əyani-qiyabi orta məktəbində kimya-biologiya müəllimi olmadığından onu Rayon Partiya Komitəsinin birinci katibi bu sahədə işləməyi təklif edir. Beləliklə, İbrahim Seyidovun ömrünün ən şərəfli hissəsi - müəllimlik həyatı başlayır.

Nə az, nə çox 21 il şagirdlərlə gündəlik təmasda olan İbrahim müəllim sonradan Ərəfsə kənd orta məktəbinə direktor təyin olunur. 1964-cü ildə isə indiki Şərur rayonunun mərkəzində yerləşən Qələbə orta məktəbində istehsalat təlimi üzrə direktor müavini kimi çalışır. Bir ildən sonra Şərur Rayon Partiya Komitəsinə təlimatçı təyin edilir və eyni zamanda, rayon inzibati orqanlarının fəaliyyətinə nəzarət edir. Rayon qəzet redaksiyaları yaradılanda İbrahim Seyidov "İşıqlı yol" redaksiyasına partiya katibi və redaktor müavini təyin olunur.

Sonra Xok kənd orta məktəbində direktor işləyir. Bir müddətdən sonra öz doğma Şahtaxtı kəndində yerləşən indiki Akademik Zərifə Əziz qızı Əliyeva adına kənd orta məktəbinə direktor təyin olunur.

...Mən İbrahim Seyidovu müəllim kimi yox, ilk olaraq məktəb direktoru olaraq tanımışam. Çünki o, bu vəzifəyə təyin olunanda mən aşağı siniflərdə oxuyurdum. Həmin illərdə İbrahim müəllim əsasən 9-10-cu siniflərə dərs deyirdi. Yuxarıda qeyd etdiyim kimi, mən onu sərt, tələbkar və idarəetmənin ustası kimi tanımışam. İbrahim Seyidovun birinci dəfə məktəb direktoru işlədiyi illərdə məktəbin həyətinə içməli su çəkildi, 2 hektara yaxın ərazidə bağ salındı. İndi də kənd sakinlərinin dilindən düşmür ki, məhz həmin illərdə şagird davamiyyətinin yüksəlişi sayəsində həmin illərdə Şahtaxtı kəndində ali məktəblərə qəbul sayı iki dəfə yüksəldi.

Bir neçə ildən sonra İbrahim Seyidovu Şahtaxtı kənd soveti sədri seçdilər. Başqalarını bilmirəm onun məktəbdən getməsi o dövrdə mənim üçün çox sevindirici oldu. Çünki onun davranış və təhsildəki yüksək tələbkarlığına dözmək asan deyildi. Bundan üç il sonra İbrahim müəllimi yenidən Şahtaxtı kənd orta məktəbinə direktor təyin etdilər. Bu, bütün kənd üçün xoş xəbər oldu. Elə mənim özüm üçün də. Çünki ali məktəbə daxil olmaq sırası bizim yaşıdlara çatmaqda idi və ortadakı boşluğun doldurulmasına ehtiyac duyulurdu. İbrahim müəllim indi də o illəri belə xatırlayır: "Nə vaxt məktəbdə vəziyyət xarablaşıbsa məni ora direktor təyin ediblər. Beləliklə, 20 ildən artıq Akademik Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbində direktor vəzifəsində işlədim və oradan da 54 il stajla təqaüdə çıxdım. İftixarla deyə bilərəm ki, 54 illik əmək fəaliyyətimdə bir dəfə də olsun xəbərdarlıq belə almamışam. Məktəb və dərs mənim həyatımın mənası olub".

Qeyd etməliyəm ki, hazırda yenidən qurulmuş Şahtaxtı kənd orta məktəbinin binası keçmiş SSRİ-nin süqutu illərində Naxçıvanda barmaqla sayılacaq qədər az olan yeni məktəb binası idi. İbrahim Seyidov yeni məktəb binasının tikintisi ilə bağlı prosesi belə xatırlayır: "Bu tikinti ilə bağlı Bakıya müxtəlif təşkilatlara yüzdən artıq məktub yazmışam, qəbullarda olmuşam. Nəhayət, 1977-ci ildən başlayan bu tikinti 1985-ci ildə istifadəyə verildi. Yeni məktəbin həyəti tikanlıq bir səhra idi. 300-dən artıq peyvənd ərik tingi satın alıb öz əllərimlə nizamla əkdim. Məktəbə suvarma üçün və içməli su çəkdirdim. Məktəbin həyətini tikanlıqdan güllü-çiçəkli yaşıllığa çevirdim. Burada əldə etdiyimiz təcrübə Şərur rayon məktəblərində yayıldı.

P.S. əziz və dəyərli İbrahim müəllim, belə bir deyim var: sərlövhə mətnin yarısıdır. Yazının sərlövhəsi bir şagirdinin Sizin timsalınızda bütün müəllimlərinə olan ehtiramının tərənnümüdür. Yazının başlığını dünyadan köçən bütün müəllimlərimizə Allahdan rəhmət diləyi və Sizə 100 yaş arzusu ilə seçdim...

***Sabir Şahtaxtı,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru, yazıçı-publisist, AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri***

## Kolleclərə qəbul olunan abituriyentlərin qeydiyyatı bu gün başa çatır




Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin (kolleclər) boş qalan plan yerlərinə qəbul olunan abituriyentlərin qeydiyyatı bu gün başa çatır. Dövlət İmtahan Mərkəzinin saytında yer alan məlumatda deyilir ki, abituriyentlər sentyabrın 11-dək sənədlərini qəbul olunduqları təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidirlər. Onlar qeydiyyat zamanı tələb olunan sənədlərin siyahısını müvafiq təhsil müəssisələrindən öyrənə bilərlər. Həmin müddətdə qeydiyyatdan keçməmək abituriyentin müvafiq ixtisasa yerləşdirilməsindən imtina etməsi kimi qiymətləndiriləcək və onun qəbul haqqında əmri tədris müəssisəsinə göndərilməyəcək.

Xatırladaq ki, 11 illik orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinin müsabiqəsində iştirak etmək üçün 3643 abituriyent ixtisas seçimi edib. Müsabiqə nəticəsində 1424 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olunub.

## Yeni tədris ilində 1 milyon 525 mindən çox şagird təhsil alacaq



2019-2020-ci tədris ilinin əvvəlinə olan proqnoz göstəricilərinə əsasən, yeni tədris ilində respublikanın ümumi təhsil müəssisələrində ümumilikdə 1 milyon 525 min 16 şagird təhsil alacaq. Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, şagirdlərdən 714 min 259-u qız, 810 min 757-si isə oğlandır. Ümumtəhsil məktəblərinin I sinfində 164 min 234, IX sinfində 122 min 43, XI sinfində isə 82 min 782 şagirdin təhsil alacağı proqnozlaşdırılır. Hazırda respublikada 322 ibtidai məktəb, 3 min 307 tam orta məktəb, 795 ümumi orta məktəb, 16 xüsusi tipli ümumi orta məktəb və 7 əyani-qiyabi (axşam) tam orta məktəb, o cümlədən 59 məktəb-lisey, 49 lisey, 15 gimnaziya və 14 inteqrasiya təlimli internat tipli gimnaziya olmaqla, ümumilikdə 4 min 447 məktəb fəaliyyət göstərir.

## Ölkəmizdə 32,5 minə yaxın həkim əhalinin sağlamlığı keşiyində dayanır



Hazırda ölkəmizin tibb müəssisələrində 32 min 489 nəfər ali təhsilli həkim çalışır. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, onların arasında sayca ən çox terapevtlərdir. Belə ki, 7 min 951 nəfər terapevt əhalinin sağlamlığı keşiyində dayanıb. Həkim kadrların 3 min 577 nəfərini pediatrlar, 3 min 362 nəfərini cərrahlar, 3 mindən çoxunu stomatoloq-dentistlər təşkil edir. Sonrakı yerlərdə şüa-diaqnostika üzrə olan həkimlər, ginekoloqlar, nevropatoloqlar, gigiyena-epidemioloqlar və oftalmoloqlar gəlir. Sağlamlıq keşikçilərinin 508 nəfəri otolarinqoloq, 510 nəfəri dermato-veneroloq, 321 nəfəri psixiator, 248 nəfəri fitiziator, 101 nəfəri idman-müalicə həkimi, 72 nəfəri narkoloqdur. Həkimlərin 6 min 776 nəfəri digər ixtisas sahibləridir.

## Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir

Məktəbəhazırlıq qruplarında təhsil dövlət hesabına həyata keçirilir. Bu qruplar dövlət vəsaiti hesabına müvafiq təlim və metodik vəsaitlərlə təmin edilir. Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, elektron sənəd qəbulu sistemindən istifadə üçün də ödəniş tələb olunmur. Məktəblərin seçimi zamanı valideyn (qanuni nümayəndə) elektron sistemdə seçdiyi məktəbə sorğu yerləşdirməlidir.

# AXCP-dən daha bir istefa - səbəblər və ittihamlar dəyişməyib

*Namiq Sadıqlı "Əli Kərimli hər üç aydan bir 2 saatlıq mitinqlər keçirməklə, işini bitmiş hesab edir, partiyadaşlarını günahsız yerə həbsxanalara doldurmaqla, özünə müəyyən dividend qazanmağı xoşlayır"*

***Hər il AXCP sıralarını tərk edən cəbhəçilər bu siyasi müxalifət təşkilatının qapısını kifayət qədər sərt şəkildə çırpıb-gedirlər. Maraqlısı da budur ki, artıq Xalq Cəbhəsindən gedənlərin hər biri eyni səbəbləri gətirir, eyni ittihamları səsləndirir və partiyanın sədri Ə.Kərimli barədə eyni düşüncələrini ictimailəşdirirlər. O cümlədən, istefalar hər il və kütləvi şəkildə reallaşdırılır ki, buda birbaşa Ə.Kərimlinin yarıtmaz fəaliyyəti, xarici qüvvələrlə əməkdaşlıq edərək, dövlətçilik maraqlarını satması, onun səhvlərini üzünə deyənlərə qarşı amansız siyasi repressiyalar, təhdidlər və hücumlar tətbiq etməsi, eləcə də, digər bənzər olaylardır. Biz ötən illərdə baş vermiş istefaların bəzilərini və onların səbəblərini bir daha xatırlaya bilərik.***

Misal üçün, sabiq cəbhəçi Qaraxan Ağayev 2014-cü ildə AXCP sıralarını tərk edərkən deyib ki, Ə.Kərimlinin yarıtmaz siyasəti və iddiaları dözülməz həddə çatıb. "Partiyanın yürütdüyü daxili və xarici siyasət kursu iflasa uğrayıb" deyə o, bəyanatında qeyd edib.

### Öncəki illərdəki istefa bəyanatından: "Əli Kərimli erasına birlikdə son qoymalıyıq"

Həmin il AXCP-nin Sumqayıt şəhər təşkilatının keçmiş sədri Kəmaləddin Vilayətoğlunun verdiyi məlumata görə isə, partiyanın yarıtmaz siyasətinə görə, 49 nəfər AXCP üzvü partiyadan istefa verib. 2016-cı ildə Nərimanov rayon təşkilatının sədr müavini, AXCP gənclər komitəsinin fəalı Dəyanət Babayev, partiya üzvləri Cavid Musazadə və Ehtiram Mehdiyev də Ə.Kərimlinin qeyri-demokratik və avtoritar idarəçiliyindən bezdiklərini bəyan edərək, AXCP sıralarını tərk ediblər. Həmin istefa bəyanatını da xatırlatmaq istərdik. SİTAT: "Gəncliyin ruhunu, istifadə edilməyən bir tarla kimi, özbaşına qoysanız orada gicitkən və tikandan başqa bir şey tapa bilməzsiniz. Mən 2009-cu ildə AXCP sıralarına könüllü şəkildə üzv olmuşam. AXCP-də olan hər kəs kimi əvvəllər mən də Ə.Kərimlini "supermen" kimi görürdüm. 2010-cu ildə Ə.Kərimlinin şəxsi təyinatı ilə AXCP Suraxanı rayon şöbəsinin gənclər komitəsinin sədri oldum və az müddət ərzində ətrafıma yüzlərlə gənc topladım. Partiyada uğursuz siyasəti görüb tənqidə başladıqda isə məni partiyadaxili işlərdən uzaq tutmağa başladılar. Bizə öz liderinə qarşı çıxmamağı, istənilən halda, onu tənqid etməməyi əmr kimi qəbul etdirmişdilər. Artıq Ə.Kərimli erasına birlikdə son qoymalıyıq. Bizə 23 ildir öz şəxsi mənafeyinə qulluq edən müxalifət yox, yeni fikirli, intellektual gənclər lazımdır. Ə.Kərimli illərdir gənclərdən qul kimi istifadə edib. Bu, yolverilməzdir. Bu insan onlarla gənci partiyadan bezdirib, istefa etmələrinə zəmin yaradıb..."

### Cavid Nəbiyev: "Bu günə kimi fəhləlik edib, partiyaya kömək etmişəm. Əməyimi onların heç birinə halal eləmirəm"

Həmin il istefa verən daha bir cəbhəçi Cavid Nəbiyev də bənzər bəyanatla çıxış edib: "AXCP də olduğum müddətdə Ə.Kərimlini hər zaman dəstəkləmişəm. Amma son zamanlar partiyada gördüklərim məni




oradan uzaqlaşdırdı. Dəfələrlə Ə.Kərimliyə görə döyülmüşəm, cərimələnmişəm. Bunun müqabilində isə heç zaman partiyadan dəstək görmədim. Bir insan belə mənim problemlərimlə, həyatımla maraqlanmadı. Bu gün məni xəyanətdə suçlayanlara demək istəyirəm ki, mən təmsil olunduğum partiyaya heç vaxt xəyanət etməmişəm. Elə adamlar mənim ünvanıma mesaj göndərirlər ki, halbuki mən orda olanda, heç onların izi-tozu da yox idi. Bu günə kimi fəhləlik edib, partiyaya kömək etmişəm. Əməyimi onların heç birinə halal eləmirəm".

### Vilayət Muxtarov: "Əli Kərimli özü bilə-bilə bizi güclə meydanlara göndərib, sonra da tutdururdu"

AXCP-nin Suraxanı payon təşkilatındakı "Hövsan-2" dayaq dəstəsinin istefa verən üzvü Vilayət Muxtarov isə deyib ki, Ə.Kərimli ölkədə demokratiya axtarır, amma partiyasından xəbəri yoxdur: "Öncə, bir get partiyadaxili proseslərə bax, sonra bu cür bəyanatlar səsləndir. Özü bilə-bilə bizi güclə meydanlara göndərib, sonra da tutdururdu. Zorla "Azadlıq" qəzetinə abunə edib, ayda 10 manatımızı alırdılar. Amma bizə konkret demirdilər ki, qəzetə yığırıq. Deyirdilər ki, qəzetimizi dövlət cərimələyib, ona görə də kömək etmək lazımdır. Digər bir tərəfdən də, indi Ə.Kərimlinin ətrafında özü kimi bir neçəsi var ki, bizə satqın deyir. Biz satqın deyilik, biz satqınlara qarşı çıxanlarıq. Özlərini sığortalamaqdan ötəri min bir yalana əl atanların, ümumiyyətlə, siyasət adından, partiya adından danışmağa haqları yoxdur".

2017-ci ildə isə, AXCP-nin Nərimanov şöbəsindən Aslan Həmidli, eləcə də, Binəqədi şöbəsinin üzvü Adəm İbrahim təşkilat sıralarından gedərək, Ə.Kərimliyə qarşı ən ağır ittihamlar irəli sürüblər. Belə bir vəziyyət 2018-ci ildə və hazırda davam edir. Bu baxımdan, fəal cəbhəçi olmuş Namiq Sadıqlının da ittihamları, istefa verməyinin səbəbləri eynilik təşkil edir. Onun bəyanatı və ortaya qoyduğu faktlar da bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.

Beləliklə, ictimai rəy daha bir ifşanın da şahidi olmaqdadır ki, son vaxtlar sosial şəbəkələrdə partiya sıralarına, guya onlarla, yüzlərlə adamın qoşulduğunu iddia edən Ə.Kərimli elə öz partiyadaşları, daha dəqiq desək, artıq istefaya getmiş sabiq cəbhəçilər tərəfindən kəskin şəkildə hədəfə alınmaqda, yalanları üzə çıxmaqdadır. Fakt budur ki, partiya sıralarını tərk edənlər, ona qoşulanların sayını dəfələrlə üstələyir.

### Namiq Sadıqlı: "Bu addımı əvvəldən atmışdım, bəlkə düzələr deyə gözləyirdim"

Yeri gəlmişkən, N.Sadıqlı "Facebook"dakı profilində AXCP ilə yollarının ayrıldığını bəyan edərkən, daha əsaslı isbatları ortaya çıxaraq dərhal Ə.Kərimlinin söyüş maşınının - trollarının hədəfinə tuş gəlib. Halbuki bir zamanlar onun özü də həmin şəxslərlə yaxından tanış olub. Lakin göründüyü kimi, nə Ə.Kərimli, nə də onun söyüş maşınının tərkibinə daxil olan trollar üçün müqəddəs heç nə qalmayıb. "Bizdən deyilsənsə, düşmənimizsən" tipli mənəviyyatsızlıq prinsipini işə salan trollar Sadıqlıya qarşı olmazın söyüşlər, həqarətlər, təhqirlər yağdırıblar. Halbuki demokratiya, ədalət, insan haqq və hüquqlarından, konstitusiyada sərbəst toplaşmaq, düşünmək və s. azadlıqlardan dəm vuran Ə.Kərimli və s. cəbhəçilər bu dəfə bolşeviksayağı hücumları ilə, necə deyərlər, hansı yuvanın quşları olduqlarını təsdiq ediblər. Bu, AXCP-nin hələ də küçə müxalifətçiliyi, bolşevizm şakərindən qalmadığının da bariz göstəricisidir.

Beləliklə, N.Sadıqlının fikirlərinə bir daha diqqət yetirək. SİTAT: "Dostlar, çox düşündükdən sonra Ə.Kərimlinin özəl, şəxsi partiyasından istefa addımını atdım. Bir neçə səbəbləri yazacam ki, cəbhədə qalan hörmətimi saxlayan və dəyər verdiyim kifayət qədər cəbhəçi dostlarım məndən inciməsinlər. Əksinə, bu addımı əvvəldən atmışdım, bəlkə düzələr deyə, gözləyirdim. Səbəbləri, ən azı 12 bənddə göstərirəm".

Partiya üzvü daha sonra AXCP-dən çıxma səbəbini 12 bənd olaraq sıralayıb:

1.Siyasi rəqiblərinə qarşı öz əlaltıları vasitəsilə iyrənc söyüşlü kampaniya apardığını qəbul edə bilmədiyim üçün

2. Azad, fərqli düşüncəli, onu tərifləməyən və tənqid edənlərə hücum etdiyi üçün

3. Özündə güc tapıb son həbs edilən, hakimiyyəti sərt tənqid edən "siyasi məhbus" (dırnaqlar bizimdir - red.) Elvin İsayevə nəinki dəstək, əksinə, ona dəstək verən üzvlərə trol hücumu etdirdiyi üçün

4. Özünü "demokrat lider" adlandırıb, əksinə, diktatorluğa daha çox meyil göstərdiyi üçün

5. Neçə illərdir 50-dən çox pariya sədrindən heç birinin adını çəkərək, birliyə çağırmadığı üçün

6. Neçə illərdir hakimiyyəti dəyişmək deyil, yalnız ana müxalifət kürsüsünü qoruyubsaxladığı və təkəbbürlükdən əl çəkmədiyi üçün

7. Hər üç aydan bir 2 saatlıq mitinq keçirməklə işini bitmiş hesab etmək, partiyadaşlarını günahsız yerə həbsxanalara doldurmaqla özünə müəyyən dividend qazanmağı xoşladığı üçün

8. Şəxsinə yazdığım məktublarımı oxuyaraq, cavab verməməklə hörmətsizlik etdiyini gördüyüm üçün

9. Yeni nəfəs, yeni siyasi simalar ortaya çıxan kimi onlara qarşı "hakimiyyətə işləyirsən" damğası vurmaq, cəmiyyətdə gözdən salmaq üçün sosial şəbəkələr üzərindən min cür qarayaxmalar hazırladığı üçün

10. Dildə demokratiyadan danışan bu şəxs "mənim yanımda deyilsənsə, bizdən deyilsən" deməklə yalnız tərifləri qəbul edib, onları agent adlandırdığı üçün

11."Elçi TV youtube kanalı" vasitəsilə Ə.Kərimliylə yanaşı, digər siyasi xadimlərin video çıxışlarını yayınladığımı həzm edə bilmədiyi üçün

12.Daha nə yazım, dostlar, çox gözlədim ki, özünü lider kimi cəmiyyətə məcburi sırımaq istəyən bu partiya sədri bəlkə düzələr, bəlkə hakimiyyətə gəlmək üçün siyasi mübarizə adamlarıyla isti münasibətlər qurub birləşməyə başlayar, əksinə, yanıldığımı tamamilə hiss elədiyim üçün istefa verdim.

Yekunda göründüyü kimi, istər baş verən qarşıdurma və istefalar, istərsə də yuxarıda bəhs edilən istefa bəyanatları və sərt ifadələr AXCP sədri Ə.Kərimlinin gerçək simasını bir daha cəmiyyətə nümayiş etdirir. Bilinən həm də odur ki, bu ünsürün sədrlik etdiyi siyasi təşkilatda yaratdığı dözülməz mühit onun ətrafında qalan üç-beş üzvün də, qısa zaman ərzində, partiyadan getməsini şərtləndirir və reallaşdırır.

***Rövşən NURƏDDİNOĞLU***

# İstintaq təcridxanasına mobil telefon keçirilməsinin qarşısı alınıb



***Penitensiar Xidmətin əməliyyat aparatının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı İstintaq Təcridxanasına mobil telefon aparatı keçirilməsi cəhdinin qarşısı alınıb.***

Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Cinayət Məcəlləsinin 126.2.4-cü və 228.4-cü maddələrinə əsasən təqsirli bilinərək yeddi il müddətinə azadlıqdan məhrum edilmiş məhkum Zərbəliyev Məhəmmədəli Rövşən oğluna xalası oğlu Laçın rayon sakini Fehruzlu Xaliq Natiq oğlu tərəfindən gətirilmiş sovqata baxış keçirilib. Baxış zamanı "Bismak Moskva" sözləri yazılmış peçenyenin içərisində xüsusi üsulla gizlədilmiş sellofan bükülüdə bir ədəd "Nokia" markalı mobil telefon aparatı və bir elektrik qidalandırıcısı aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Radikal müxalifət nəyə görə seçkilərdən qaçır?

*Cəmiyyət isə, bütün seçkilərdə öz iradəsini ortaya qoyur, seçimini edir və dövlətinin əsaslarını təşkil edən institutlarını formalaşdırır*

***Qaragüruhçu müxalifətin hər seçkilər ərəfəsində müxtəlif bəhanələr gətirərək, siyasi oyunbazlıqlara yol vermələri, ilk növbədə, belə düşünməyə əsas verir ki, onların elektoratları yox səviyyəsindədir və sosial bazaları get-gedə daha da azalır. O cümlədən, Azərbaycan xalqının onlara heç bir inamı və etibarı yoxdur. Məhz qarşıdan gələn bələdiyyə seçkilərində də radikal müxalifət təmsilçiləri yenidən öz köhnə amplualarından çıxış edərək, bənzər və köhnə təfəkkürlərinə yönəlmiş düşüncələrini bölüşürlər. Bu barədə qəzetimizə açıqlama verən millət vəkilləri, onu da qeyd ediblər ki, Azərbaycan xalqının mütləq əksəriyyəti Cənab Prezidentin siyasətini dəstəkləyir və Yeni Azərbaycan Partiyasına böyük rəğbətlə yanaşırlar.***

Millət vəkili Cavid Osmanov: **"Müxalifətin elektoratı olmadığından, Azərbaycan xalqı tərəfindən dəstəklənmədiklərindən, seçkilər ərəfəsində şər-böhtan kampaniyasına başlayırlar, nəticədə, seçkilərdən imtina edirlər"**

"Bildiyimiz kimi, bu il növbəti siyasi kampaniya baş tutacaq, dekabr ayında Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Biz hər seçki ərəfəsində görürük ki, radikal müxalifət yalan və böhtanlarla dolu çıxışlar edirlər". Sözügedən fikirləri Milli Məclisin deputatı Cavid Osmanov deyib. Onun sözlərinə görə, nəticədə, seçkilər ərəfəsində onların elektoratları olmadığından seçkiləri boykot etməyə çalışırlar, seçkilərdə iştirak etmirlər: "Bu, ilk olaraq, ondan irəli gəlir ki, Azərbaycan xalqının mütləq əksəriyyəti Cənab Prezidentin siyasətini dəstəkləyir və Yeni Azərbaycan Partiyasına böyük rəğbətlə yanaşır. Heç də təsadüfi deyil ki, YAP-ın sıraları 750 minə çatır. Müxalifətin elektoratı olmadığından, eləcə də, Azərbaycan xalqı tərəfindən dəstəkləri olmadığından seçkilər ərəfəsində şər-böhtan kampaniyasına başlayırlar, nəticədə, seçkilərdən imtina edirlər. Xüsusən, biz bələdiyyə seçkiləri ərəfəsində 5-19 - arası hər bələdiyyə üzvünün seçilməli olduğunu bilirik. Lakin onların elektoratı olmadığından seçkilərdə iştirak etməkdən boyun qaçırırlar".



Müxalifətin seçki faktorundan qorxmaları, çəkinmələri məsələsinə gəlincə, millət vəkili deyib ki, hazırkı müxalifət bir il hakimiyyətdə olub və bu dövr ərzində onlar seçki olmadan iqtidara yiyələniblər, yəni seçki keçirmədən: "Ona görə, indi də düşünürlər ki, hakimiyyətə seçki yolu ilə deyil, hərəkat yolu ilə, qeyri-leqal yolla gəlmədirlər: "Lakin biz bilirik ki, 1993-cü ildən başlayaraq, ölkədə legitim hakimiyyət formalaşıb və YAP legitim yolla keçirilən siyasi kampaniyalarda qalib gəlibdir. Bu isə, bir daha təsdiq edir ki, radikal müxalifət xalqın dəstəyindən bu gün də məhrumdur, ona görə də, istər bələdiyyə, istərsə də parlament seçkilərindən geri çəkilirlər".

Aydın Hüseynov: **"Onlar yaxşı bilirlər ki, seçkilərdə iştirak etsələr belə, heç bir uğur qazana bilməyəcəklər"**

"Bir var konstruktiv müxalifət, bir də var qaragüruhçu, dağıdıcı müxalifət - Azərbaycanın milli dövlətçiliyinə, ölkənin milli maraqlarına daban-dabana zidd olan müxalifət. Təəssüf ki, bu gün fəallaşan müxalifət, məhz belə bir müxalifətdir". Bu fikirləri isə Milli Məclisin deputatı Aydın Hüseynov qeyd edib. Onun sözlərinə görə, Azərbaycan xalqı özünün inkişaf yolunu müəyyən edib: "Xalqımız Ulu Öndər Heydər Əliyevin şəxsiyyəti ətrafında, strategiyası ətrafında birləşərək, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir. Bu gün reallaşdırılan siyasətin başlıca məqsədi Azərbaycan vətəndaşlarının maraqlarını təmin etməkdən ibarətdir. Hər bir Azərbaycan vətəndaşı həyatında, fəaliyyətində ölkə iqtidarının vətəndaşa verdiyi dəyəri görür".



"Radikal müxalifət isə başlarında ötən əsrin 92-ci, 93-cü illərin havasını əsdirir" deyən millət vəkili əlavə edib ki, bu cür siyasət Azərbaycan dövlətçiliyinə ziddir: "Belə bir qaragüruhçu siyasi toplumu xalqımız tanımır, tanımayıb, tanımayacaq da.

Onlar illərdir ki, seçkilərdə nailiyyət qazanmayıblar. Çünki onların heç bir sosial bazaları, sosial dayaqları yoxdur. Ona görə də, hər seçkilər ərəfəsində boykot və s. bu kimi lüzumsuz taktikaları işə salırlar. Onlar yaxşı bilirlər ki, seçkilərdə iştirak etsələr belə, heç bir uğur qazana bilməyəcəklər".

Aydın Hüseynov, həmçinin, qeyd edib ki, Azərbaycan cəmiyyəti demokratik cəmiyyətdir, ölkə ictimaiyyəti demokratik prinsiplərə söykənir və cəmiyyət bütün seçkilərdə öz iradəsini ortaya qoyur, seçimini edir, öz dövlətinin əsaslarını təşkil edən institutlarını formalaşdırır: "Ona görə də, bütün keçirilən seçkilər demokratik və şəffaf prinsiplər əsasında nəticəsini tapır. Ümumiyyətlə, hər bir seçkilər Azərbaycan vətəndaşlarının öz fikirlərini azad şəkildə ifadə etməsinin təntənəsi olubdur".

***Rövşən Nurəddinoğlu***



# Həya və abırdan uzaq olan manyaklar

**RƏFİQƏ**

***Qəribə bir mühit yaranıb dağıdıcı müxalif düşərgədə hər kəs özünü "əsl mxalifətçi" hesab edir. Gülünc iddiadır. Gülünc olmaqla yanaşı, əsl manyaklıqdır. Çünki Azərbaycanda olan müxalifət kimisi heç dünyaya gəlməyib. Sual olunsa ki, bu müxalifət bu 26 ildə nəyi edib, nə dəyişib? Özünə hörmət edən kəs deyər ki, vallah, həmin müxalifəti necə görmüşəmsə, eləcə də qalıb.***

Sual edəndə ki, nəyə görə belə düşünürsən? Cavab verər ki, müxalifət, əslində, müxalifət olduğundan üzübəri həmin təxəyyülə, həmin təfəkkürə və həmin təsəvvürə malik olan primitiv siyasi dairədir. Bəli, budur, primitiv siyasi dairə, "atalı"-"analı" olan gülünc, primitiv dairə. Anlamırlar ki, bu primitiv dairə ötən zaman kəsimində "əriyərək", yoxa çıxmağa başlayıb. Yeni "var olduqlarını" deyənlər, indi yox olmamaq üçün də özlərində güc tapa bilmirlər. Xüsusilə, dağıdıcı müxalifətin əsas iki qanadı olan Müsavat və AXCP-də qarşıdurmaların yaşanması da, təbii ki, səbəbsiz deyil. Bir məntiq isə, acı sonluqdan qaçmağın mümkünsüzlüyünü özündə ehtiva etmiş olur. Müxalifət düşərgəsində "müxalifətçiyəm" iddiasında olanlar, bir-birini də eşitmir. Bir-birinə qarşı kar olmaq - kor olmaq tendensiyalarından, əl tutmamaq, salam verməmək kimi amillərdən, "sözünü özün deyib, özün eşidirsən" formasındakı "mən səni eşitmək istəmirəm, sən danışsan da, burada bəziləri kənara işləyir" formasında oxşar replikalar yekunda alışmaqda olan barıt çəlləyi üçün bir kibrit çöpü olurlar.

Məntiq və düşüncə, qavramaq, söz eşidib, kəlmə kəsmək insan üçün normal bir şeydir. Ancaq bu normallığı müxalifət düşərgəsində görmək mümkünsüzdür. Çünki Ə.Kərimli kimi satqınlıq simvolunun düşüncəsi budur, səs-küy, xarici qüvvələrin qrantlarına görə bütün mənliyini, hər şeyini satmaqla, qabağa keçəcəyini düşünsə də, anlamır ki, əslində, səs-küy vasitəsi ilə nə qədər uzun yol qət etsə də, bir o qədər də öz sifətini ifşa etmiş olur. Öz abırsızlığı ilə abrına hakim olmasa da, Azərbaycan qanunları öz göstərişlərinə hakimdir və əsla, hansısa siyasi qüvvə üçün "müxalifətçiyəm", müxalifətin "anası" "olması" adlı məfhum qəbul olunmayıb. Və "müxalifətçiyəm" deyən ə. kərimlilər hansı oyunları çıxaracaqlarsa, həmin qanunlar üzərində hansı təhrifləri etməyə çalışacaqlarsa, bax, bu, artıq tam başqa bir söhbətin mövzusudur. O zaman erməni üfunəti verən Ə.Kərimlinin tüpürcəkli üzünə tüpürməyə belə yer qalmayacaq.

Hansısa xarici maraqlı qüvvələr və beynəlxalq təşkilatlar da Ə.Kərimlini necə ki, bu gün alət kimi istifadə edir, yenə də alət kimi o yan-bu yana fırlayıb, ortaya ataraq, öz maraqlarını təmin etməyə çalışacaqlar. Çünki abrına hakim olmayan müxalifətə - elə Ə.Kərimliyə elə belə də etməlidirlər.

Və Ə.Kərimlinin yanında nökərçilik edərək, qəpik-quruşa satılan "badbaxt" müxalifətin funksioneləri məgər anlamırlar ki, acı sonluqdan qaçmaq mümkünsüzdür. Bunu isə, hər şeyi yaddaşına köçürən və yalan danışmayan zaman da göstərəcək.

Bu arada Ə.Kərimlini abırsızlığını, siyasi manyaklığını təsdiqləyən bir məqamı xatırlatmaq istərdim. Əbülfəz Elçibəy dəfn olunarkən, onun qardaşı Almurad Əliyev Ə.Kərimlini dəfn mərasimindən qovmuşdu. "Rədd ol buradan, sənin bu yerə ayaq basmağın günahdır!" deyən Almurad ağa, elə bununla da, "Yurd" şefinin payını vermişdi. Ancaq nə faydası, həyasız ünsürlərdən nə gözləmək olar? Qapıdan qovursan, pəncərədən girirlər. Həyasızda nə ar olur, nə də abır.

# Nəsimi rayonunda narkotik vasitələrin satışı ilə məşğul olan şəxs tutulub

***Narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan, əvvəllər məhkum edilmiş paytaxt sakini İlkin Yusufov Nəsimi Rayon Polis İdarəsinin 20-ci polis bölməsinin əməkdaşları tərəfindən saxlanılıb.***



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi axtarış zamanı ondan 0,318 qram heroin aşkar edilərək götürülüb. Əməliyyat tədbirlərinin davamı olaraq İ.Yusufovun Nəsimi rayonu ərazisində yaşadığı evə baxış zamanı oradan 104,815 qram heroin və 5,292 qram metamfetamin aşkarlanaraq götürülüb. Araşdırma zamanı müəyyən edilib ki, saxlanılan şəxs narkotik vasitələri satış məqsədilə əldə edərək özündə saxlayıb.

Faktla bağlı İ.Yusufov barəsində Cinayət Məcəlləsinin 234.4.3-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, külli miqdarda törədildikdə) maddəsi ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

# Avtomobildə gizlədilən telefonlar aşkarlanıb



Gömrükçülər avtomobildə gizlədilən telefonlar aşkarlayıblar. Dövlət Gömrük Komitəsinin (DGK) Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan "Opel Vectra" markalı avtomobil ilə gələn Azərbaycan vətəndaşı saxlanılıb. Vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirsə də, nəqliyyat vasitəsinin gizli saxlanc yerindən beş ədəd "Mİ A3" markalı mobil telefon aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Sabirabadda iki nəfər qarayara xəstəliyinə yoluxub



Sabirabad Mərkəzi Rayon Xəstəxanasına (MRX) 2 rayon sakini (34 və 26 yaşlarında kişi) gətirilib. Həkimlər onlara qarayara diaqnozu qoyublar. Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hazırda Sabirabad MRX-nin infeksion şöbəsində müalicə alan xəstələrin vəziyyəti orta-ağır kimi qiymətləndirilir. Faktla bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi məlumatlandırılıb. Artıq araşdırmalara başlanılıb.

# İnsan hüquqlarının beynəlxalq standartlarının və ona hörmət prinsipinin formalaşması

***H**əm regional, həm də universal səviyyədə insan hüquqları sahəsində beynəlxalq hüququn dinamik inkişafı əhatəli hüquq külliyyatının meydana gəlməsini şərtləndirmişdir. Belə ki, insan hüquqları haqqında yüzə yaxın beynəlxalq Konvensiya qəbul olunmuşdur ki, onların da böyük əksəriyyəti artıq hüquqi qüvvəyə malikdir. İnsan hüquqları sahəsində normativ bazanın belə əhəmiyyətli inkişafı beynəlxalq ümumi hüququn ayrıca bir istiqamətinin meydana gəlməsi haqqında fikir formalaşdırmışdır. Bu yeni istiqamət insan hüquqları sahəsində beynəlxalq hüquq kimi nəzərdən keçirilir. İnsan hüquqları haqqında sənədlərdə geniş tətbiq olunan və dörd kateqoriyadan müqavilələri fərqləndirən təsnifatı nəzərdən keçirməklə, insan hüquqları sahəsində tənzimləyici sisteminin sərhədləri haqqında təsəvvürlərə malik olmaq mümkündür.*

Daşqın Qəmbərov yazır: "Birincisi, ümumi xarakterli Konvensiyalar. Belə Konvensiyalar, demək olar ki, regional və qlobal səviyyədə qəbul olunmuş bütün insan hüquqlarına aiddirlər. Bu sıradan Konvensiyalara BMT paktını, Avropa və Amerika Konvensiyalarını, Afrika Xartiyasını və s. aid etmək mümkündür.

İkincisi, konkret məsələlər üzrə Konvensiyalar. Bu Konvensiyalar insanın genosid, hərbi cinayətlər, insanlığa qarşı cinayətlər, köləlik, insan alveri və s. məsələlərlə bağlı konkret hüquqlarının qorunmasını nəzərdə tutur.

Üçüncüsü, qrupların müdafiəsi haqqında konvensiyalar. Belə Konvensiyalar ayrı-ayrı qrupların tələbatlarına uyğunlaşdırılır. Belə qruplar qismində qaçqınlar, miqrantlar, qadınlar, uşaqlar, əsir düşmüşlər və s. nəzərdən keçirilə bilər.

Dördüncüsü, irqi, cinsi əlamətlərə görə, həmçinin, təhsil, əmək və məşğulluq sahələrində diskriminasiyaya aid olan konvensiyalar.

Yuxarıda qeyd etdiklərimizdən başqa, beynəlxalq hüququn insan hüquqları sahəsində bir sıra normaları bütün beynəlxalq ictimaiyyət üçün məcburi olan imperativ normalar kimi nəzərdən keçirilir. Eyni və ya oxşar xarakterli beynəlxalq hüquq norması ilə əvəz olunmadığı halda, bu normalardan imtinaya yol verilmir.

Beynəlxalq ümumi hüquqda insan hüquqlarının tənzimlənməsinin genişmiqyasları da Beynəlxalq İnsan Hüquqları Kodeksinin meydana gəlməsindən xəbər verir. Beynəlxalq Kodeksdə tənzimləyici normaların mahiyyətindən çıxış edərək, aşağıdakı bölmələri fərqləndirmək olar:

- ümumi deklarasiyadan ibarət olan preambula;

-BMT paktları və ümumi xarakterli regional Konvensiyalardan ibarət olan ümumi hissə;

-çoxsaylı müfəssəl müqavilələrdən ibarət olan xüsusi hissə.

Qeyd etdiklərimizdən başqa, insan hüquqları sahəsində geniş "yumşaq hüquq"un təsirini nəzərdən keçirmək olar. Bu, qətnamələr, tövsiyələr, davranış kodeksləri, minimal standart qaydalar, rəhbər prinsiplər və s. kimi sənədlərdə ifadə olunur. Qeyd edək ki, bu sənədlər məcburi xarakter daşımırlar. Əksər hallarda insan hüquqları sahəsində siyasətin rəhbər prinsiplərini ifadə edirlər. Bununla yanaşı, onlar, həmçinin, müxtəlif funksiyaları yerinə yetirirlər. Bəzən isə, bu sənədlər əsl normativ-hüquqi əsasların yaranması istiqamətində ilkin addım kimi nəzərdən keçirilir. Bu, ondan xəbər verir ki, "yumşaq hüququ" təşkil edən sənədlərin əhəmiyyətini azaltmaq olmaz."

Müəllifin fikrincə, müasir dünya dövlətlərinin əksəriyyəti özlərinin milli qanunvericilik aktlarına insan hüquqlarının qorunması ilə bağlı müddəalar daxil etmişlər. Qeyd edək ki, "insan hüquqlarının beynəlxalq standartları" ifadəsi, ilk dəfə 1948-ci ildə qəbul olunmuş Ümumdünya İnsan Hüquqları Deklarasiyasında işlədilmişdir. İnsan hüquqları sahəsində beynəlxalq standartların yaradılması tarixi BMT-nin İnformasiya Departamenti tərəfindən insan hüquqları üzrə beynəlxalq hüquq üçün baza rolunu oynayan mühüm sənədlərin sadalanması yolu ilə ifadə olunur. Yəni buradan belə nəticə çıxarmaq olar ki, insan hüquqlarının beynəlxalq standantarı bu sahə üzrə beynəlxalq sənədlərin qəbul olunması yolu ilə formalaşır. İnsan hüquq və azadlıqlarına dair bir sıra əsas sənədlər artıq yuxarıda qeyd edilmişdir. Məhz bu sənədlər normativ standartların əsasını təşkil edirlər. Ayrı-ayrı dövlətlər müvafiq sənədlərdən irəli gələn müddəaları özlərinin milli hüquq sistemlərində tətbiq etməklə, insan hüquqlarının beynəlxalq standartlarını qəbul etmiş olurlar.

Qeyd edək ki, insan hüquqlarının beynəlxalq standartlarının yaradılması prosesində istinad olunan xüsusi kriteriyalar mövcuddurlar və bu kriteriyalar BMT BA-nın 1986-cı ilin dekabrında qəbul olunmuş insan hüquqları sahəsində beynəlxalq standartların yaradılması adlı Qətnaməsində əksini tapmışdır. Bu kriteriyalar aşağıdakı vacib məqamlara əsaslanırlar:

-standartlar mövcud beynəlxalq hüquq normalarına uyğun olmalıdırlar;

-hüquq və öhdəlikləri müəyyənləşdirməyə imkan verəcək qədər dəqiq və aydın olmalıdır.

- səmərəli implementasiya mexanizmlərinə malik olmalıdırlar;

- beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməlidirlər və dəstəyini qazanmalıdırlar;

-Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 yanvar tarixli Sərəncamına əsasən, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan edilməsi ilə əlaqədar olaraq, multikulluralizm ənənələrinin qorunub-saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədi ilə qeyri-hökumət təşkilatları və icmalar da cəlb edilməklə, ölkə boyu maarifləndirmə tədbirlərinin təşkil edilməsi;

-mətbuatda insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, milli vətənpərvərlik ruhunun yüksəlməsinə, fikir plüralizminin, tolerantlığın və multikulturalizmin inkişafına xidmət edən yazılara geniş yer verilməsi, eyni zamanda, peşəkarlığın və peşə etikasının davamlı olaraq, artırılması məqsədilə kütləvi informasiya vasitələrinin nümayəndələri üçün maarifləndirmə semnarlarının təşkil edilməsi;

-Azərbaycan Respublikası tərəfindən 2007-ci il 6 fevral tarixində imzalanmış BMT-nin "Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya"sının ratifikasiyasının sürətləndirilməsi;

-Azərbaycan Respublika tərəfindən 2008-ci il 17 noyabr tarixində imzalanmış "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının ratifikasiyası prosesinin sürətləndirilməsi;

-BMT-nin Uşaq Hüquqları Konvensiyasının şikayətlərin verilməsi mexanizmi ilə bağlı III Fakültativ Protokolunun imzalanması və ratifikasiya edilməsi;

-Rəqabət Məcəlləsinin qəbul edilməsinin sürətləndirilməsi;

- "Reproduktiv sağlamlıq haqqında" qanunun qəbul edilməsinin sürətləndirilməsi;

-Sosial yönümlü bazar iqtisadiyyatının inkişafında mühüm rolu olan azad sahibkarlığın inkişafına real təminatlar verilməsi və münbit biznes mühitinin yaradılması məqsədilə orta və kiçik sahibkarlıq subyektlərinə gömrük və vergi güzəştlərinin tətbiq edilməsi, inhisarçılığa, haqsız rəqabətə və korrupsiyaya qarşı mübarizənin və nəzarətin gücləndirilməsi, bu tələbləri pozan şəxslərin məsuliyyətə cəlb edilməsi;

-böhran əleyhinə proqramın və tədbirlərin icrası üzrə görülmüş tədbirlər və əldə edilmiş nəticələrlə bağlı əhali arasında izahat, məlumatlandırma və maarifləndirmə işinin aparılması;

- vətəndaşların müəyyən olunmuş vaxtda qəbulunu aparmayan, onların müraciətlərinə, ərizə və şikayətlərinə vaxtında baxılmasını təmin etməyən, haqlı tələblərinin həlli üzrə tədbirlər görməyən, laqeydlik və biganəlik hallarına yol verən vəzifəli şəxslər barədə intizam cəzalarının sərtləşdirilməsi;




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

-icra strukturlarının vəzifəli şəxsləri tərəfindən yerlərdə əhali ilə mütəmadi görüşlərin təşkili, "açıq mikrofon" təcrübəsinin genişləndirilməsi;

-əhalinin qayğıya ehtiyacı olan müxtəlif qruplarının sosial təminatının gücləndirilməsinə xidmət edən dövlət strategiyalarının, plan və proqramlarının, həmçinin, saziş qurumlarına və başqa beynəlxalq təşkilatlara dövlət hesabatlarının hazırlanması prosesinə vətəndaş cəmiyyəti təsisatlarının, habelə, müvafiq istiqamətlər üzrə maraqlı tərəflərin nümayəndələri də cəlb edilməklə, ictimai dinləmələrin və müzakirələrin keçirilməsi;

-hüquq pozuntularının və məmur özbaşınalığının qarşısının alınmasında əhəmiyyəti, həmçinin, aztəminatlı vətəndaşların imkanları nəzərə alınmaqla, Bakıda və respublikanın şəhər və rayon mərkəzlərində dövlət büdcəsindən maliyyələşən və ödənişsiz xidmət göstərən hüquq məsləhətxanalarının yaradılması;

-müraciət etmək hüququnun səmərəli təmini məqsədilə yaradılmış regional elektron müraciət terminalları şəbəkəsinin genişləndirilməsi, onlardan istifadənin təşviqi məqsədilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə yerlərdə treninqlərin keçirilməsi;

-iş yerlərində işçilərin əmək hüquqlarının səmərəli müdafiəsi məqsədilə Müvəkkilin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə monitorinqlərin aparılması;

-döyüş (cəbhə) bölgəsində düşmən qüvvələrinin açdığı atəş nəticəsində həlak olan, yaralanan, travma və ya kontuziya alan mülki şəxslər (və ya onların ailələri) üçün müavinətin, yaşayış evlərinə və əkin sahələrinə dəyən ziyana görə kompensasiyanın müəyyən edilməsi, ünvanlı dövlət sosial yardımının təyini zamanı istifadəsi mümkün olmayan torpaqların nəzərə alınmaması;

- ana və uşaq ölümünün, habelə, qüsurlu uşaqların dünyaya gəlməsinin qarşısının alınması məqsədilə hamilə qadınlar üçün patronaj xidmətinin geniş yayılması və perinatal müayinələrin aparılması;

- orta məktəblərdə təhsilin keyfiyyətinə nəzarət, uşaqlara qarşı zorakılıq hallarının, müəllim-şagird münasibətlərinin ictimai monitorinqi, islahatların həyata keçirilməsi məqsədi ilə Təhsil Nazirliyi yanında İctimai Şuranın yaradılması və psixoloqların fəaliyyətinin gücləndirilməsi;

- ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan və təhsil haqqını ödəmək üçün maddi imkanı olmayan ümumi səbəbdən I və II qrup əlilliyi olan şəxslərin özlərinin, habelə, I qrup əlilliyi olan şəxslərin övladlarının təhsil haqqı ödənişlərindən azad edilməsi.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

səs

Son səhifə 10 sentyabr

## İspaniyanın tanınmış müğənnisi vəfat edib



70 milyondan çox albomu satılan İspaniyanın dünyaca məşhur müğənnisi Kamilo Sesto 72 yaşında dünyasını dəyişib. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə sənətçinin sosial media hesabında açıqlama verilib. Yerli "TVE" televiziyasının məlumatına görə, sənətçi Madriddəki xəstəxanada ürəktutmasından vəfat edib. Qeyd edək ki, 1960-cı ildən tanınmağa başlayan Kamilo Sesto 1971-ci ildə işıq üzü görən ilk albomu ilə məşhurlaşıb. Sesto ingilis, alman, yapon və digər dillərdə də mahnı ifa edib.

## Həkim: "Gün ərzində ən azı 45 dəqiqə-1 saat gəzinti vacibdir"



Gənclərin böyük əksəriyyəti idmana zaman ayırsa da onlar arasında ürək xəstəliklərindən əziyyət çəkənlərin sayı az deyil. İdman dedikdə ağlımıza hansısa qapalı idman zalı gəlir. Əslində isə bu, heç də sağlam üsul deyil. Daha yaxşı olardı ki, insanlar açıq havada qaçmağa, müxtəlif idman hərəkətləri etməyə üstünlük versinlər. AZƏRTAC xəbər verir ki, bu sözləri Respublika Müalicəvi Diaqnostika Mərkəzinin ürək-damar cərrahı Anar Əmrah deyib. Cərrahın sözlərinə görə, gün ərzində ən azı 45 dəqiqə-1 saat gəzinti vacibdir: "Həmişə vurğulayırıq ki, sürətli qaçmaq lazım deyil. Çünki yarış tərzinə bənzəyən idman növləri stress əmələ gətirir. Mütəxəssislər ona görə də bunu tövsiyə etmirlər. Yaxşı olardı ki, insanlar hər gün təmiz havada gəzsin, bir-biri ilə söhbət etsinlər."

## Həddən artıq yağlı qidalar orqanizmdə ağır maddələr əmələ gətirir



Düzgün qidalanmaq, orqanizmə zərər verən məhsullardan uzaq olmaq sağlamlığın əsas şərtlərindən biri sayılır. Qəbul edilən qidaların tərkibi nə çox yağlı, nə də çox duzlu olmamalıdır.

AZƏRTAC xəbər verir ki, həkim-diyetoloq Ləman Süleymanova bu barədə deyib: "Bişirilən qidalara aşırı dərəcədə yağ əlavə etmək düzgün deyil, çünki onların reaksiyasından orqanizmdə ağır maddələr əmələ gəlir. Xüsusilə arterial təzyiqi yüksək olanlara, ürək-damar xəstəliyindən əziyyət çəkənlərə belə qidalar mənfi təsir edir. Yağın çoxluğu həzm prosesini ləngidir və şəkərli diabet xəstələri üçün həyati təhlükəyə səbəb ola bilər".

Tez-tez yemək, yağlı yeməklərlə bərabər qazlı sular içmək tamamilə yanlışdır. Süfrədə yağlı yeməklərlə yanaşı, mütləq həzmə rahatlıq gətirən göyərti və ağartı məhsulları da olmalıdır. Ağır yeməklərdən əvvəl yüngül qida və salatlar qəbul edilməlidir.

Həkim-diyetoloqun dediyinə görə, sağlamlığı qorumaq üçün bəzi məqamlara diqqət yetirmək lazımdır: "Şüyüd, cəfəri, darçın çubuqları, az miqdarda zəncəfil, xiyarı xırda-xırda doğrayıb yeməklərə əlavə etmək məsləhətdir. Evdə hazırlanan detoks çayı axşam yeməyindən əvvəl də istifadə olunması faydalıdır, yeməkdən sonra isə detoks çayın dəmləmə variantını qəbul etmək olar. Onun qəbulu yağlı qidaların tərkibindəki xolesterinin orqanizmdən xaric olunmasını təmin edir". Yeməkdən dərhal sonra meyvə qəbul etmək də tövsiyə edilmir. Qidanın asan və rahat həzmi üçün yeməkdən yarım saat sonra bitki çayı içmək məsləhət görülür.

## Həbib Nurməhəmmədov UFC reytinqində birinci olmaq istəyir




Qarışıq döyüş növləri (MMA) üzrə ən güclü idmançılardan hesab edilən rusiyalı Həbib Nurməhəmmədov özünü kateqoriyasından asılı olmayaraq UFC reytinqində birinci görmək istəyir. TASS agentliyi xəbər verir ki, idmançının bu barədə fikirləri UFC-nin saytında yer alıb.

H.Nurməhəmmədov sentyabrın 7-də Abu-Dabi şəhərində amerikalı Dastin Porye ilə görüşdə qalib gələrək dünya çempionu kəmərini müdafiə edib. O, üçüncü raunda rəqibini boğucu fəndlə məğlub edib və yüngül çəki dərəcəsində UFC çempionu titulunu qoruyub.

Rusiyalı idmançı ötən ilin aprelində amerikalı El Yakuinta ilə döyüşdə çempion kəmərini qazanıb və həmin vaxtdan kəməri özündə saxlayır. Ötən ilin oktyabrında H.Nurməhəmmədov irlandiyalı Konor Makqreqora da qalib gələrək çempion adını müdafiə edib. Döyüşdən sonra hər iki komandanın üzvləri arasında kütləvi dava düşüb. Yanvarın 29-da Nevada ştatının atletika komissiyası irlandiyalı döyüşçünü 50 min dollar məbləğində cərimələyib və altı ay müddətinə yarışlardan diskvalifikasiya edib. Rusiyalı döyüşçü isə doqquz ay müddətinə UFC yarışlarından kənarlaşdırılaraq 500 min dollar məbləğində cərimələnib. Otuz yaşlı H.Nurməhəmmədov peşəkar rinqdə keçirdiyi 28 döyüşün hamısını qələbə ilə başa vurub.




## "Mançester Siti" son doqquz ildə transferə 1 milyard avrodan çox pul xərcləyib!

İngiltərənin "Mançester Siti" futbol komandası 2010-cu ildən bəri transferə 1 milyard avrodan çox vəsait xərcləyən ilk klub olub. TASS informasiya agentliyi xəbər verir ki, bu barədə Beynəlxalq İdman Araşdırmaları Mərkəzi ("CIES Football Observatory") açıqlamasında bildirib.

Qurumun açıqlamasına görə, Mançester təmsilçisi 1,014 milyard avro pul xərcləyib. İkinci yerdə Fransanın "Paris Sen-Jermen" komandası (913 milyon avro), üçüncü pillədə isə İspaniyanın "Real Madrid" (903 milyon avro) klubu qərarlaşıb. Digər pillələrdə isə müvafiq olaraq İngiltərənin "Mançester Yunayted" (751), İtaliyanın "Yuventus" (719), İspaniyanın "Barselona" (697), İngiltərənin "Liverpul" (639), İngiltərənin "Çelsi" (561), İspaniyanın "Atletiko Madrid" (550) və İngiltərənin "Arsenal" (498) klubları yer alıblar. "CIES Football Observatory" 2005-ci ildə yaradılıb. Təşkilatın mənzil-qərargahı İsveçrənin Nevşatel şəhərində yerləşir. Mərkəz futbolda statistik göstəricilərin hesablanması işinə baxır və Beynəlxalq Futbol Assosiasiyaları Federasiyası (FIFA) tərəfindən tam dəstəklənir.

## Ramos Kasilyasın rekordunu təkrarlayıb



İspaniya millisinin kapitanı Serxio Ramos yığmanın sabiq qapıçısı İker Kasilyasın rekordunu təkrarlayıb. 33 yaşlı müdafiəçi millinin heyətində kapitan sarğısında ən çox oyun keçirən ikinci futbolçu olub. O, Farer adaları ilə matçda Ramos kapitan kimi 167-ci oyununa çıxıb. Bu göstərici ilə oyunçu millinin əfsanəvi qapıçısı İker Kasilyasa çatıb. 2016-cı ildə milli karyerasını başa vuran Kasilyas da yığmada 167 oyun keçirib. Qeyd edək ki, Serxio Ramos 2005-ci ildən İspaniya millisinin uğurları üçün çalışır.

## "Barselona"nın futbolçusu millidə zədələndi



Fransa yığması və "Barselona"nın futbolçusu Samuel Umtiti zədələnib. Qol.az xəbər verir ki, Avro-2020-nin seçmə mərhələ oyunları üçün milliyə dəvət olunan futbolçu Albaniyaya qarşı matçdan öncəki məşq zamanı zədə alıb. Buna görə də o, Fransa yığmasının albanlara 4:1 hesabıyla qalib gəldiyi qarşılaşmada forma geyinməyib. Fransa yığması sentyabrın 10-da doğma meydanda Andorra ilə üz-üzə gələcək. Umtitinin həmin qarşılaşmada da iştirakı sual altındadır.

## Boksçumuz dünya çempionatına qələbə ilə başlayıb

Sentyabrın 9-da Yekaterinburqda boks üzrə dünya çempionatına start verilib. Belə ki, çempionatın birinci günündə yarışa 1/32 final mərhələsindən başlayan idmançımız Amin Kuşkov (75 kq) Türkmənistan təmsilçisi Nursahat Pazziev 4:1 hesabı ilə məğlub edib. Növbəti mərhələdə idmançımızın rəqibi rusiyalı Qleb Bakşi olacaq. Dünya çempionatında Azərbaycanı 8 idmançı təmsil edir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat ixtisası üzrə II kurs tələbəsi Babayev Neman Məhəmməd oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600